# BƏLƏDİYYƏ HƏYATI

№17 (324) www.belediyye.info / e-mail: belediyye2015@gmail.com

İCTİMAİ - SİYASİ QƏZET

16 Sentyabr 2015-ci il

Qəzet 2003-cü ildən nəşr edilir


## “Əmlak vergisi: yeniliklər və problemlərin həlli yolları” mövzusunda seminar təşkil edilib



Bakıda “Əmlak vergisi: yeniliklər və problemlərin həlli yolları” mövzusunda seminar təşkil edilib.

Seminar Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi, Nəsimi rayon bələdiyyəsi, “Bələdiyyə həyatı” qəzeti və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (GİZ) tərəfindən keçirilib.

Tədbirin məqsədi əmlak vergisinin yığımı ilə bağlı Vergi Məcəlləsinə edilən dəyişikliklər ətrafında fikir və təcrübə mübadiləsi aparmaq, bu istiqamətdə tətbiq edilən yeniliklər barədə məlumat vermək və mövcud problemlərin həlli yollarını müzakirə etmək olub.

Seminarda **Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə** “Azərbaycanda əksmərkəzləşdirmə siyasətinin və yerli özünüidarəetmənin təkmilləşdirilməsinin başlıca istiqamətləri” mövzusunda çıxış edərək bildirib ki, yerli özünüidarəetmənin inkişafını təmin etmək üçün strateji məqsədlər müəyyənləşdirilməlidir. Yerli özünüidarəetmənin gələcək inkişafının başlıca məqsədləri insan potensialının artırılmasına və hər bir bələdiyyə qurumunda əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilməlidir. Bu gün bələdiyyələrin qarşılaşdığı problemlərin həllinə diqqətlə yanaşılmalı və onların sürətlə həllinə çalışmaq lazımdır. Belə problemlərdən biri də bələdiyyələrin əmlak vergisi ilə bağlıdır.

Qeyd olunub ki, bu istiqamətdə müntəzəm addımlar atılır, yeniliklər tətbiq edilir və mühüm təcrübə qazanılır. Nəsimi bələdiyyəsinin qazandığı təcrübəni, tətbiq etdiyi yenilikləri əmlak vergisinin yığımında mövcud olan problemlərin həllində çıxış yollarından biri kimi qəbul etmək olar. **Mehdi Səlimzadə bildirib ki, yerli vergilərin yığımında yeni qanunvericilik bazası yaradılmalı, bələdiyyələrin fəaliyyətinə hər hansı müdaxilələrə yol verilməməli və bələdiyyələr öz büdcələrindən səmərəli şəkildə istifadə etməlidirlər. Bununla əlaqədar yerli özünüidarəetmənin inkişafı üçün məsuliyyət daşıyan mərkəzi orqanın yaradılması məqsədəuyğun olardı.**

Tədbirdə **Nəsimi rayon bələdiyyəsinin sədri Nazim Qaraxanov** “Əmlak vergisi: yeniliklər və problemlərin həlli yolları” mövzusunda çıxış edərək əmlak vergisinin yığımında bələdiyyənin qarşılaşdığı problemlərə toxunaraq, bu məqsədlə bələdiyyə tərəfindən yeni layihələrin həyata keçirildiyini qeyd edib. **O bildirib ki, Nəsimi bələdiyyəsinin internet resursu təkmilləşdirilib və əmlak vergisinin ödənişini həyata keçirmək üçün onlayn ödəmə həyata keçirilib.** Bu gün artıq bələdiyyəmiz nağdsız ödəmədə ilk olaraq onlayn ödəməyə keçidi reallaşdırıb. Bundan əlavə “E-manat” sistemində ilk olaraq Nəsimi bələdiyyəsinin ödənişini həyata keçirmək mümkün olacaq. Bunlar bələdiyyənin daxili imkanları hesabına mümkün olub.

Seminarda **Prezident Administrasiyasının regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin sektor müdiri Kamran Bayramov** çıxış edərək bildirib ki, bu ilin altı ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanda daşınmaz əmlak vergisi üzrə daxil olan vəsaitin həcmi 6,5 faiz artıb. Ölkənin 36 şəhər və rayonunda əmlak vergisi üzrə ciddi artım müşahidə edilib. Məsələn, Səbail rayonunda daşınmaz əmlak vergisi üzrə daxil olmaların həcmi 87,9, Gəncə şəhəri üzrə 88,9, Cəlilabadda 89,3 faiz, Şəmkirdə 1,5, Şirvanda 2,5, Gədəbəydə isə 15,5 dəfə artım müşahidə edilib. İlin sonunadək daşınmaz əmlak vergisi üzrə daha çox artım gözlənilir.

**Kamran Bayramov qeyd edib ki, bələdiyyələr daxilində vergitutma obyektlərinin və vergi ödəyicilərinin uçotu ilə bağlı proqram hazırlanıb və bütün bələdiyyələrə paylanıb.** Proqramda vergitutma obyektləri və vergi ödəyicilərinin uçotu ilə yanaşı, yerli vergi və ödənişlərin hesablanması, onunla bağlı müvafiq şəhadətnamələrin, tədiyyə bildirişlərinin avtomatik olaraq çatdırılması, eləcə də vergi və ödənişlər üzrə əldə olunan vəsaitin xərclənməsi üzrə hesabatların hazırlanması da nəzərdə tutulub. Sektor müdiri əlavə edib ki, bələdiyyələrin 95 faizi kompyuterlə təmin edilib. Kompyuteri olmayan bələdiyyələr də qısa zamanda təmin ediləcək. Bununla da yaxın zamanlarda bu proqramın tətbiqi üçün imkan yaranacaq.

Vurğulanıb ki, bələdiyyələr vergilərin yığılması istiqamətində bütün resurslarını səfərbər etməlidir. Əhali ilə səmərəli iş qurulmalı, bu sahədə uğur qazanmış bələdiyyələrin təcrübəsindən yararlanılmalıdır. Vətəndaşlara yerli vergiləri ödəmək mədəniyyəti aşılanmalıdır. Bələdiyyələr Vergilər Nazirliyinə hər bir vətəndaşın vergi uçotuna alınması haqqında şəhadətnamə verməlidir. Bu, vətəndaşın vergi ödəyicisi olduğunu təsdiq edən sənəddir və psixoloji baxımdan da böyük əhəmiyyət kəsb edir.

Ötən illə müqayisədə bələdiyyələrdə bütün vergi ödənişləri üzrə ümumi artımın müşahidə olunduğunu vurğulayan Kamran Bayramov bu sahədə inkişafı əks etdirən bir sıra göstəriciləri diqqətə çatdırıb. Yarım il ərzində mehmanxana, sanatoriya, kurort üzrə ödənişlərdə 16,3 faiz artım olduğunu qeyd edən sektor müdiri bələdiyyə torpaqlarının satışından əldə olunan ödənişlərin kəskin azalmasını müsbət amil kimi qiymətləndirib. Bildirib ki, bu sahədə demək olar ki, 50 faizdən çox azalma olub. Bu, müsbət haldır. Çünki bələdiyyələr əsas diqqəti torpaq satışına deyil, digər vergi ödənişlərinə yönəldiblər.

**Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə** çıxışında daşınmaz əmlakdan tutulan vergilərin yığılmasında müəyyən çətinliklərin olduğunu qeyd edib. Bildirib ki, ev təsərrüfatları və mənzillərin bir qismi qeydiyyatdan keçməyib. Amma bu, vergilərin yığılmasına problem yaratmamalıdır. Məhz buna görə bir çox hallarda vətəndaşlar vergi ödəmirlər. Vergilərin yığılmasını təmin etmək üçün bələdiyyələrin üzərinə çox böyük vəzifə düşür. Verginin yığılmasında digər çətin məqam insanları bələdiyyə vergilərini ödəməyə təşviq etməkdir. Seçicilərə göstərmək lazımdır ki, yığılan vəsait hara gedir. Ona görə də geniş maarifləndirmə işi aparılmalı, görülən işlər barədə əhaliyə məlumat verilməlidir.

Azərbaycanın inkişafında bələdiyyələrin rolunu xüsusi vurğulayan Arif Rəhimzadə mətbuatda bələdiyyələrin fəaliyyətinə geniş yer ayrılmasının vacibliyini diqqətə çatdırıb. O, bələdiyyələrlə bağlı insanların ictimai fəallığının artırılmasının zəruriliyini qeyd edib.

**“Bələdiyyə həyatı” qəzetinin baş redaktoru Vüqar Tofiqli** çıxış edərək bələdiyyələrin qarşılaşdığı problemlərdən, əmlak vergisinin yığımıyla bağlı yeniliklərdən danışıb. Əhalinin onlayn ödənişə marağının artırılmasının və bu sistemin geniş təbliğ olunmasının vacibliyini qeyd edən baş redaktor bu sahədə Nəsimi bələdiyyəsinin fəaliyyətini xüsusi vurğulayıb.

Digər çıxış edənlər də yeni sistemin tətbiq edilməsinin əhəmiyyətindən, bələdiyyələrin qarşılaşdığı problemlərin aradan qaldırılması yollarından danışıblar.

Seminarın sonunda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının təşkilatçılığı ilə çapdan çıxan “Bələdiyyələrin statusu: hüquq və vəzifələri” kitabı iştirakçılara təqdim edilib.

***AZƏRTAC***

## RƏSMİ XRONİKA



**“Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 fevral tarixli 453 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi yaradılsın.

2. “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

3. Ləğv edilmiş Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin tabeliyində olmuş Dövlət Aerogeodeziya Müəssisəsi və Bakı Kartoqrafiya Fabriki Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin tabeliyinə verilsin.

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 45 ştat vahidi müəyyən edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin cari il üçün maliyyə təminatı ilə bağlı məsələləri on gün müddətində həll etsin;

5.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyini müvafiq bina və zəruri avadanlıqlarla təmin etsin;

5.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 sentyabr 2015-ci il.

## Etik davranış qaydalarının tətbiqi ilə bağlı bələdiyyələrə tövsiyyə məktubu göndərilib

**Ədliyyə Nazirliyi Bələdiyyələrə İş mərkəzi tərəfindən bələdiyyələrə “Etik davranış qaydalarının tətbiqi ilə bağlı” tövsiyə məktubu göndərilib. Mərkəz rəisi Mehdi Səlimzadənin imzasıyla göndərilən məktubda qeyd edilir:**

“Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş 28 aprel 2015-ci il tarixli “Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Qanun bələdiyyə qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

Bu Qanun bələdiyyə qulluqçusu statusu olan bütün şəxslərə şamil edilir və yerli özünüidarə orqanlarının, bələdiyyə qulluqçularının nüfuzunun, onların fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, vətəndaşların bələdiyyələrə etimadının yüksəldilməsi, korrupsiyanın qarşısının alınması məqsədini daşıyır.

Qanunun 5-ci maddəsinə əsasən bələdiyyə qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda, yerli özünüidarə orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu, bələdiyyə qulluqçusunun elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil edilmir.

Qanunun tələblərinə görə bələdiyyə qulluqçularının fəaliyyəti insanların hüquq və azadlıqlarının, qanuni maraqlarının təmin olunmasına (qorunmasına) xidmət etməlidir. Bələdiyyə qulluqçusu bütün şəxslərlə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyindəki şəxslərlə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. Xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməlidir.

Bələdiyyə qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur və qulluq mövqeyindən istifadə edərək, digər bələdiyyə qulluqçularını ictimai və ya siyasi birliklərin, yaxud dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir. Bələdiyyə qulluqçusuna bələdiyyə orqanlarında ictimai və ya siyasi birliklərin (həmkarlar ittifaqları istisna olmaqla), yaxud dini təşkilatların struktur bölmələrini yaratmaq və ya həmin orqanlarda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək qadağandır.

Qanunun 10-11-ci maddələrinə uyğun olaraq bələdiyyə qulluqçusunun qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır və ona qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, bələdiyyə qulluqçusu onlardan imtina etməlidir. Tərəflərindən biri bələdiyyə qulluqçusunun qulluq keçdiyi bələdiyyə orqanı olan əqdlərdə həmin bələdiyyə qulluqçusu digər tərəf ola bilməz.

Bundan başqa, Qanunun tələblərinə görə bələdiyyə qulluqçusuna bələdiyyə əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompyuter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlığından şəxsi maraqları naminə, habelə xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etmək qadağandır.

Etik davranış qaydalarına əməl olunmasına bələdiyyənin sədri nəzarət edir və o öz davranışı ilə etik davranış qaydalarına əməl olunmasına nümunə göstərməli, tabeliyində olan bələdiyyə qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalı, tabeliyində olan şəxsləri hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq etməməlidir. Kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməli, tabeliyində olan bələdiyyə qulluqçularına etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyələr verməli, bu qaydaları pozanların intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir.

Qanunun 19-cu maddəsinə görə etik davranış qaydalarının pozulması və bu barədə şikayət və ya digər məlumatın daxil olması, eləcə də kütləvi informasiya vasitələrində məlumatın dərc edilməsi bələdiyyə qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. İntizam icraatı zamanı bələdiyyə qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş bələdiyyə orqanının rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir. Qanunun 20-ci maddəsində etik davranış qaydalarının pozulmasına görə intizam məsuliyyəti tədbirləri də müəyyən edilmişdir.

Yeni Qanunun bələdiyyə üzvləri və qulluqçuları tərəfindən öyrənilməsi və Qanunun tələblərinə əməl olunması tövsiyə edilir.”

***Belediyye.info***



## Mingəçevir bələdiyyəsi yüksək bal toplayan məzunları mükafatlandırdı

Mingəçevir Bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə bələdiyyə üzvləri ali məktəblərə qəbulda 500-dən yuxarı bal toplayan bir qrup məzunla görüş keçirib. Görüşdə bələdiyyə sədri Coşqun Abdullayev, şəhər təhsil şöbəsinin müdiri Sahib Məmmədov çıxış edərək şəhər məktəblərinin bu ilki uğurlarından danışaraq tədbirdə iştirak edən məzunları ali məktəblərə qəbul olduqlarına görə təbrik ediblər.

10 saylı məktəbin direktoru Xumarə Mikayılova rəhbərlik etdiyi məktəbdən 15 nəfər məzunun 500-dən yuxarı bal topladığı barədə məlumat verdi və görüş üçün bələdiyyəyə təşəkkürünü bildirib.

Çıxış edənlər - bələdiyyə üzvləri Zahid Qasımlı, Əli Əliyev, Mircəmil Hacıyev, Nəbi Nəbiyev, məzun Nəbiyeva Nərmin, şəhər üzrə ən çox bal (692 bal) toplamış Zeynəb Əmiraslanovanın valideyni tələbələrə uğurlar arzulayaraq tövsiyələrini veriblər.

Görüşün sonunda yüksək bal toplayan 15 nəfər məzuna bələdiyyə tərəfindən pul mükafatı və gül dəstələri verildi.

Tədbirin iştirakçıları bələdiyyənin həyətində xatirə şəkli çəkdiriblər.

***Belediyye.info***

## Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib

Azərbaycan Milli Məclisinin Regional məsələlər komitəsinin payız sessiyasında bu gün ilk iclası olub.

İclasda komitə sədri Arif Rəhimzadə komitənin ötən sessiyasında fəaliyyəti və bu sessiya qarşıda duran məsələlər barədə məlumat verərək fəaliyyətlərini qənaətbəxş hesab edib.

Daha sonra iclasda “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” qanuna dəyişiklik müzakirə edilib.

Sonra “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Torpaq islahatı haqqında”, “Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ saylı qanunu ilə təsdiq edilmiş “Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə”, “Torpaq bazarı haqqında” qanun layihələrinə dəyişiklik müzakirə edilib.

Dəyişikliyə əsasən, qanunlarda “yerli əhəmiyyətli və təsərrüfatdaxili yolların” sözləri “bələdiyyə yollarının və təsərrüfatdaxili yolların” sözləri ilə əvəz edilir.

Layihələr plenar iclasa tövsiyə olunub.

***APA***


**Mehdi Səlimzadə: “Çalışmaq lazımdır ki, vətəndaşlar bələdiyyələrdən narazı qalmasın”** ______ *Səhifə. 2*

**“Məqsədimiz əhalinin sosial-iqtisadi çətinliklərinin həllində dövlətə yaxın köməkçi olmaqdır”** ______ *Səhifə. 2*

**Daim sakinlərimizin sosial problemlərinin həllinə çalışırıq** ______ *Səhifə. 3*

**Milli hakimiyyət və idarəetmə orqanları arasında məsləhətləşmə və danışıqların effektiv mexanizmi** ______ *Səhifə. 4*

# Mehdi Səlimzadə: "Çalışmaq lazımdır ki, vətəndaşlar bələdiyyələrdən narazı qalmasın"



**Bu gün Azərbaycan bələdiyyə sisteminin əsas məqsədlərindən biri ölkəmizdə formalaşan torpaq münasibətlərində yaxından iştirak etmək və bu istiqamətdə vətəndaşların qarşılaşdığı problemlərin aradan qaldırılmasına çalışmaqdır. Bütün proseslərin dövlət siyasətinə uyğunlaşdırılması kimi əsas məsuliyyət yükünü çiyinlərdə daşıyan bələdiyyələr onlara göstərilən etimadı öz fəaliyyətləriylə doğrultmalıdırlar.**

**Bu və digər məsələlərə aydınlıq gətirmək üçün Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə ilə görüşdük. Mərkəz rəisiylə söhbətdə mövcud duruma obyektiv münasibət bildirilmək-lə, bələdiyyələri narahat edən bəzi məqamlara da aydınlıq gətirildi:**

- Dövlətimizin əsas məqsədi iqtisadi inkişafın bütün mərhələlərində vətəndaşların prosesə cəlb edilməsi və hökumətin apardığı proseslərdə aktiv iştirak etməsinə nail olmaqdır. Dünyada gedən iqtisadi böhrandan yan keçməyimizdə məhz bu amilin böyük rolu vardır.

Bundan əlavə mütəmadi olaraq instutsional dəyişikliklərin aparılması da ümumi prosesə təkan verib. Qeyd edilməlidir ki, torpaqların idarəedilməsindəki boşluqlar, pərakəndəlik bu istiqamətdə instutsional dəyişikliyin edilməsini zəruri etdi. Cənab Prezident İlham Əliyevin sərəncamıyla Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilrək Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə birləşdirilməsi nəticə etibariylə bu istiqamətdə dövlət siyasətinin daha təkmil və operativ şəkildə həyata keçirilməsinə söykənən addım kimi qəbul edilməlidir.

Bələdiyyənin əsas fəaliyyəti və başlıca gəlir mənbəyi torpaq satışından və torpaq vergisindən formalaşdığından bu addımın atılmasının bələdiyyələr üçün əhəmiyyətli rolu vardır. Təəsüfflə qeyd etməliyik ki, on beş il ərzində bələdiyyələrin torpaqla bağlı problemi, əsasəndə mülkiyyətin bələdiyyələrə verilməsi həll edilməmiş qalmışdı. Hətta bələdiyyələrə verilən xəritələrin özündə belə ciddi problemlər vardır. Xüsusəndə kənd təsərrüfatı təyinatlı torpaqlarda bu özünü daha qabarıq şəkildə göstərib. Bu istiqamətdə mərkəzə daxil olan məlumatların araşdırılması və ekspertizası zamanı kifayət qədər belə faktlara rast gəlmək olar. Əksər hallarda iki dövlət strukturunun verdiyi rəylər üst-üstə düşmür və bir-birini tamamlamırdı. Bu gün Əmlak məsələləri üzrə Dövlət Komitəsinin yaratdığı elektron informasiya bazası məhz bu anlaşılmazlığı aradan qaldırmış olacaqdır. Bu elektron informasiya bazasının olmaması nəticə etibariylə qanunsuzluqlara da yol açırdı. Elə bu səbəbdən idi ki, son beş ildə 200-ə yaxın bələdiyyənin fəaliyyətində cinayət tərkibli məqamlar aşkarlandığından materiallar toplanaraq prokurorluq orqanlarına təqdim edilmişdir. Bu materialların 70-ə faizədək hissəsi məhz torpaqların idarəedilməsində yol verilən nöqsanlarla bağlı olub.

Bu günlərdə Bakıda "Əmlak Məsələləri Dövlət Komitəsinin torpaq münasibətlərinin tənzimlənməsi və torpaq bazarının təşkilində aidiyyəti dövlət qurumları və bələdiyyələrlə fəaliyyətinin koordinasiyası" mövzusunda keçirilən İşgüzar Forumda səslənən fikirlər sözügedən məqamların birbaşa bələdiyyələrə çatdırılmasında böyük rolu olacağına inanıram. Bu kimi forumların təşkili nəticə etibariylə bələdiyyə- komitə münasibətlərinin yaranmasına, əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə imkan verəcək. Yekun da isə bələdiyyə, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, xüsusəndə vətəndaşların qarşılaşdığı problemlər öz həlini tapacaq.

Diqqəti çəkən digər bir məqam isə ondadır ki, bəzi hallarda bələdiyyə torpaqların zəbt edilməsinə bələdiyyə sədrlərinin göz yumması, digər orqanların onların işinə müdaxiləsinə yol verməsi nəticədə cəmiyyətdə bələdiyyələr haqqında mənfi fikirlərin yaranmasına şərait yaratmış oldu.

Bəzən iri şəhərlərdə bələdiyyə ərazisində tikinti aparmaq üçün sənəd verilir, rəy verilir, amma bələdiyyə mülkiyyətinə aid ərazinin alqı-satqı əməliyyatı aparılmır. Bələdiyyə sədrlərinin məsuliyyətsizliyi nəticəsində tikinti işini aparan şirkət bələdiyyə ilə münasibət qurmağa maraqlı olmur. İri şəhərlərdə bu problemlərə daha çox rast gəlmək olar. Bu tipli məsələlərin həlli üçün bələdiyylər bu gün daima komitəylə əməkdaşlıq etməklə bu tipli problemlərin həllinə nail olmalıdırlar. Nəticədə vətəndaşların qarşılaşdığı problem həllini tapar və bələdiyyədə əmlak və torpaq vergisnin yığımını həyata keçirmiş olar. Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin bu işdə aktiv olması bütovlükdə Azərbaycan bələdiyyə sisteminə öz töhvəsini verəcəkdir.

Bu gün torpaq sənədlərinin alqı-satqıya hazırlanmasıyla bağlı sənədləşdirmə prosesinin sadələşdirilməsi və Komitə tərəfindən prosesin bir pəncərə sistemiylə həyata keçirilməsi daha zəruri sayılmalıdır. Fikrimcə, Əmlak Məsləələri üzrə Dövlət Komitəsiylə bələdiyyələr arasında elə bir mexanizm qurulmalıdır ki, vətəndaş prosesdən narazı qalmasın, eyni zmanda vaxt itgisinə yol verilməsin. Çalışmaq lazımdır ki, vətəndaş bələdiyyələrdən narazı qalmasın. Vətəndaşın bələdiyyədən narazı getməsi, ümumilikdə vətəndaşın dövlətdən narazı qalması kimi başa düşülməlidir. Hec bir bələdiyyə belə bir məqama qol qoymamalı, problemlərinin həlli istiqamətində müvafiq qurumlar qarşısında məsələ qaldırmağa maraqlı olmalıdırlar.

***"Bələdiyyə həyatı"***



## Bakıxanov bələdiyyəsində sədr dəyişikliyi baş verib

Sabunçu rayonu Bakıxanov bələdiyyəsində sədr dəyişikliyi baş verib. Bələdiyyənin sədr müavini işləyən Ramiz Nəsibov bələdiyyənin yeni sədri seçilib. Bundan əvvəl isə sədr işləmiş Nadir Əsədov səhhətiylə əlaqədar öz ərizəsiylə vəzifəsini tərk edib.

Xatırladaq ki, yeni sədr bələdiyyə iclasında fəaliyyət proqramını açıqlayıb. Əsasən bələdiyyə vergilərinin yığımına, ərazidə olan sənədsiz və zəbt olunmuş ərazilərin vergiyə cəlb ediləcəyini bildirib. Rayonda aparılan abadlıq quruculuq işlərinə bələdiyyənin töhvə verməli olduğunu bildirən yeni sədr, aztəminatlı ailələrə ciddi şəkildə qayğının göstəriləcəyinə və bələdiyyə qulluqçularının maddi rifah halının yaxşılaşdırılmasına çalışacağını qeyd edib.

Sabunçu rayonunda on bələdiyyədən biri olan Bakixanov bələdiyyəsinin 17 nəfər üzvü vardır.

***Belediyye.info***

## Əmircan bələdiyyəsi əmlakın kodlaşdırılmasını həyata keçirir

Əmircan Bələdiyyəsinin büdcəsinə altı ay ərzində torpaq və əmlak vergisindən daxil olan gəlirin həcmi 21 min manata bərbər olub. Bu barədə bələdiyyədən daxil olan məlumatda deyilir ki, əldə edilən vəsait əsasən torpaq və əmlak vergindən toplanıb. Cari ildə əmlak verigisinin yığımında edilən dəyişiklilkdən sonra vergilərin yığımında şəffalıq təmin edilib. Hazırda bələdiyyə də çalışan vergi müfəttişləri yalnız bildirişləri paylamaqla əhali arasında maarifləndirmə işlərini aparmaqla məşğuldurlar.

Hazırda bələdiyyə əmlakın kodlaşdırılmasını həyata keçirir və prosesi ilin sonunadək yekunlaşdırmaq niyyətindədir.

***Belediyye.info***

## Nizami bələdiyyəsi daha bir yeniliyə imza atıb

Nizami bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, bələdiyyə ərazisində yaşayan yaşlı və xəstə əmlak sahibləri tərəfindən yerli vergiləri mənzillərini tərk etmədən post-terminal vasitəsiylə ödənişi mümkün olacaqdır.

Belə ki, bələdiyyənın "ATABANK"dan müqavilə yolu ilə aldığı post-terminal vasitəsiylə hər bir rayon sakini əməkhaqqı, təqaüd və digər kartlar vasitəsiylə əmlak və torpaq vergisini nəğdsiz ödəyə biləcəklər. Bankdan götürülən yeddi ədəd daşınan post-terminal vergi müfəttişlərinə təqdim edilib. Bildirişləri paylayan zaman belə bir vasitəylə ödəniş etməyin mümkünlüyü sakinlərə izah edilir və zərurət yarandığı hallarda proses yerindəcə həyata keçirilir.

Artıq bu yeniliyi tətbiq edən Nizami bələdiyyəsi post-terminal vasitəsiylə ay ərzində beş min manata yaxın vəsait toplaya bilir.

***Belediyye.info***

# "Məqsədimiz əhalinin sosial-iqtisadi çətinliklərinin həllində dövlətə yaxın köməkçi olmaqdır"

Azərbaycanda demokratiyanın inkişafı digər mütərəqqi təsisatlarla yanaşı, həm də yerliözünüidarəetmə qurum olan bələdiyyələrin fəaliyyətini təkmilləşdirməkdən, günün tələbləri səviyyəsində qaldırmaqdan çox asılıdır. Bu gün bu proses getməkdədir və hazırda bələdiyyələri cəmiyyətdən kənar təsəvvür etmək qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin təcrübəsi də göstərir ki, dövlətin idarə olunmasında vətəndaşların iştirakını bilavasitə təmin edən, eyni zamanda real yerliözünüidarəetmə orqanı olan bələdiyyələr güclü və demokratik hakimiyyətin formalaşmasında mühüm rola malikdir.

2015-ci ilin ilk 6 ayı ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bu dövrdə Azərbaycanın uğurlu, dinamik inkişafı təmin edilmişdir. Ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

Öz fəaliyyətində Azərbaycan Respublikası Konistitusiyanın müvafiq maddələrinə, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununa və bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunlara və digər normativ hüquqi aktlara əsasən Salyan bələdiyyəsi işini seçicilərin arzu və təkliflərinə müvafiq müəyyənləşdirmiş, bələdiyyə üzvlərinin iclaslarında qəbul edilmiş yerli proqramlara uyğun olaraq qurur və həyata keçirir.

Ümumiyyətlə, bələdiyyəçilik, cəmiyyətimizdə yerli özünüidarəetmə orqanı kimi digər strukturlarla müqayisədə yeni olduğundan qarşıya qoyulan məqsədləri həyata keçirərkən bir sıra obyektiv və subyektiv çətinliklərlə üzləşsək də 2015-ci ilin 6 ayında bələdiyyəmiz xeyli işlər görmüşdür.

Bu gün rayonumuzdakı tikinti, abadlıq, quruculuq işlərini görməmək mümkün deyil. Bu işlərdə Salyan bələdiyyəsi yerli özünüidarəetmə orqanı kimi fəaliyyətini günbəgün inkişaf etdirir və genişləndirir, şəhərin sosial-iqtisadi probleminin həllində, abadlıq-quruculuq işlərində fəallıq nümayiş etdirir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçrilməsində iştirak edir.

Salyan bələdiyyəsinin 15 nəfər üzvü vardır. Bunlardan 5 nəfəri qadındır. Bələdiyyədə 5 daimi komissiya və icra aparatı fəaliyyət göstərir. Komissiya sədrləri savadlı, təcrübəli və peşəkar insanlardan seçilmişdir.

Hesabat dövründə bələdiyyəmiz 14 yığıncaq keçirmiş, 43 müxtəlif məsələ müzakirə edilmişdir. Məsələlərin həlli əsasən sosial sifarişlər əsasında, sakinlərin müraciəti, təklifləri əsasında kollegial şəkildə həyata keçirilir.

Bələdiyyələr özünüidarə orqanı olduğu üçün onların büdcəsi əsasən fərdi yaşayış evlərindən, ticarət obyektlərindən və çoxmərtəbəli binalardakı özəlləşdirilmiş mənzillərdən əmlak və torpaq vergisinin yığılması hesabına formalaşdırılır. Bu sahədə də xeyli çətinliklər mövcuddur. Əhalinin yerli vergi ödənişi sahəsində maarifləndirilməsi üçün müxtəlif tədbirlər görülür ki, bu da öz müsbət nəticələrini verməkdədir. Bələdiyyə üzvləri və bələdiyyə aparatı işçiləri əhali ilə müntəzəm görüşlər keçirir, bələdiyyənin gördüyü işlər barəsində hesabat verir, onların təklif və məsləhətlərini dinləyir, problemlərini özlərinin arzuladığı formada həll etməyə çalışır. Bələdiyyə üzvlərinin və bələdiyyə aparatı işçilərinin şəhər əhalisi arsasında apardığı təbliğat işləri nəticəsində əhalinin bələdiyyəyə inamı daha da artır və ilbəil əhalidən yığılan əmlak və torpaq vergisinin miqdarı artmaqdadır.

Hesabat dövründə bələdiyyə büdcəsinə daxil olmuş vəsait şəhərin abadlığı, sosial quruculuğu məsələlərinə, imkansız və şəhid ailələrinə, Qarabağ müharibəsi, Çernobıl əlillərinə və bələdiyyə icra aparatının saxlanmasına xərclənmişdir.




Sosial Müdafiə və Sosial yönümlü işlər arasında, əlil, qaçqın, şəhid və imkansız ailələr Bələdiyyənin daima diqqət mərkəzində saxlanılır. Bu kateqoriyadan olan sakinlərin təmsil olunduqları cəmiyyətlərlə (Qarabağ Müharibəsi əlilləri və şəhid ailələri, Çernobıl, Əfqanıstan müharibəsi əlilləri, Böyük Vətən Müharibəsi Veteranları və s.) Bələdiyyə arasında sıx əlaqələr qurulub.

Bütün bayram və əlamətdar günlərdə tədbirlər keçirilir, maddi yardım və bayram sovqatları paylanılır. Hər ay imkansız ailələrin və əlillərin müraciətləri əsasında onlara maddi yardım verilir.

Bu dövrdə vergi və rüsumların toplanmasında müəyyən irəlləyişlərə nail olsaq da hələ əhalidən vergilərin toplanmasında müəyyən problemlərimiz vardır.

Salyan bələdiyyəsi öz fəaliyyətini əsasən əhalinin müxtəlif təbəqələri tərəfindən irəli sürülən məsələlərin həlli istiqamətində qurmaqla, ölkədə əhalinin sosial-iqtisadi çətinliklərinin həllində dövlətə yaxın köməkçi olmaq, dövlət tərəfindən həyata keçrilməsi nəzərdə tutulmayan tədbirlərin icrasını təmin etməklə əhalinin ehtiyaclı təbəqəsinə yardımçı olmaq bələdiyyəmizin fəaliyyətinin əsasını təşkil edir.

Bələdiyyəmiz hər il həyata keçiriləcək tədbirləri rayon icra hakimiyyəti ilə birlikdə nəzərdən keçirir və yeni vəzifələr müəyyənləşdirir.

Nəzərinizə çatdırmaq istəyirəm ki, rayon bələdiyyələri əlaqələndirmə şurası ilə rayon İcra Hakimiyyəti arasında koordinasiya Şurası yaradılmışdır ki, bu da işlərimizin planlı və düzgün istiqamətdə qurulmasında böyük rol oynayır.

Bələdiyyə fəaliyyətinin daha da genişləndirilməsi və onun əsl özünüidarə orqanına çevrilməsi məqsədilə şəhər, qəsəbə və kənd bələdiyyələrinin Milli assosiasiyalarının fəaliyyəti diqqətə layiqdir.

Hesabat dövründə vətəndaşların ərizə və şikayətlərinə baxılması gündəlik fəaliyyətimizin başlıca istiqamətlərindən biri olmuşdur. 2015-ci ilin 6 ayında vətəndaşlar tərəfindən 97 ərizə, şikayət və müraciətlər daxil olmuşdur ki, bunlar da əsasən müsbət həll edilmişdir.

2015-ci ilin 6 ayında vətəndaşlara fərdi yaşayış evi tikintisi üçün 7879 kvm, sahibkarlıq fəaliyyəti üçün isə 3624 kvm torpaq sahəsi vətandaşların mülkiyyətinə verilmişdir.

Yuxarıda qeyd olunanlarla bərabər qeyd etmək istərdim ki, görülən işlər bizi o qədər də qane etmir. Ərazimizin sosial-iqtisadi həyatı ilə bağlı həllini gözləyən bir çox məsələlər vardır. Belə ki, şəhərin bir sıra küçələrinin abadlıq işlərinə, sakinlərimizin sosial- məişət şəraitindəki çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsinə böyük ehtiyac vardır. Əhalinin qaz, su, elektrik enerjisi təchizatı ilə bağlı problemləri çox təssüf ki, bü gündə vardır. Lakin qazın, suyun, elektrik enerjisinin verilməsində subyektiv səbəblər də vardır. Belə ki, əhalinin bir hissəsinin qazın, suyun, elektrik enerjisinin pulunu ödəməməsi həmin səbəblərdən biridir.

Təssüflə qeyd etmək istəyirəm ki, indiyə qədər şəhər bələdiyyəsinin mülkiyyətinə verilmiş torpaqların təsdiq olunmuş xəritəsi, əksər şəxsi evlərin şəhadətnamələri yoxdur.

Şəhərin təmizliyi də bələdiyyəmizin gündəlik məşğul olduğu məsələlərdəndir. Rayon İcra Hakimiyyətinin şəhər üzrə nümayəndəliyi, rayon kommunal müəssisəsi ilə birlikdə Kür çayı sahili ərazilər gündəlik zibillikdən təmizlənməsinə baxmayaraq, bəzi vətəndaşlar tərəfindən Kür çayı sahilinə zibil tökülməsi davam edir.

Bundan başqa RİH-i tərəfindən ayrı-ayrı obyektlərin tikintisinə sərəncam verilərkən, obyektlərin 5 metr raidusda təmiz saxlanması sahibkarlara tapşırılmasına baxmayaraq, həmin ərazilərin ayrı-ayrı şəxslər tərəfindən zibillənməsi davam edir.

Rayon sanitar-epidomoloji mərkəzindən xahiş olunur, həmin vətəndaşlar haqqında müvafiq tədbir görsünlər.

Bildiyiniz kimi şəhər qəbristanlığında RİH-i və şəhər bələdiyyəsi tərəfindən mütəmadi olaraq abadlıq-təmir işləri aparılır. Qəbristanlıqda abadlıq işlərinin görülməsi məqsədilə bələdiyyə tərəfindən oraya işçi-nəzarətçi təyin olunmasına baxmayaraq ayrı-ayrı vətəndaşlar qəbristanlıqda mal-qara otarır, məişət tullantıları ilə zibilləyirlər ki, bu da dözülməz haldır. Yığıncaqda din xadimlərinin də iştirak etməsindən istifadə edərək onların da bu işlərə yardım etmələrini xahiş edirəm.

Bu gün rayonumuzda, o cümlədən Salyan şəhərində hörmətli icra başçımız Tahir Kərimovun rəhbərliyi və gərgin əməyi nəticəsində gedən abadlıq-quruculuq işlərini görməmək və qiymətləndirməmək sadəcə insafsızlıq olardı. Biz də şəhərimizin daha da abadlaşmasında və sosial məsələlərin həllində hörmətli başçımız Tahir Kərimovun köməkliyi və qayğısı nəticəsində öz işlərimizi qurur və bundan sonra da var gücümüzü əsirgəməyəcəyik.

***Vaqif Hüseynov***
***Salyan bələdiyyəsinin sədri***

# Xəbərlər

## Nəsimi bələdiyyəsi Vergi məcəlləsinə dəyişiklik etməyi təklif edir

Nəsimi bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, bələdiyyə əmlak vergisinin hesablanmasıyla bağlı Milli Məclisə və Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə təklif göndərib.

Təklifin əsas məqsədi sənədsiz mənzil sahiblərini vergiyə cəlb edilməsidir. Qanunun tələblərinə görə əmlak vergisi yalnız xüsus mülkiyyətdə olan mənzillərə şamil edilir. Vergi Məcəlləsinin 198.1.1 maddəsində qeyd edilir ki, vətəndaşların "...xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur (bina Bakı şəhərində yerləşdikdə, həmin dərəcələrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi 0,7-dən aşağı və 1,5-dən yuxarı olmayan əmsallar tətbiq edilir".

Bələdiyyənin təklifinə görə, "vətəndaşlar onların xüsusi mülkiyyətində və ya istifadəsində olan mənzillərə görə" vergi ödəməlidirlər. Maddəyə bu fikrin salınması bələdiyyələrin büdcə gəlirlərin xeyli təsiri olacaqdır.

Qeyd edək ki, yeni tikililərdəki mənzillərə Daşınmaz Əmlakın Dövlət Restrindən çıxarış (sonralar "çıxarış") almayan fiziki şəxslər əmlak vergisinə cəlb edilmirlər. Bu istiqamətdə Nəsimi bələdiyyəsinin apardığı araşdırmalardan sonra belə məlum olub ki, mənzilinə "çıxarış" almayan vətəndaşlar MTK-lar tərəfindən imzalanmış müqavilələr əsasında binalarda məskunlaşırlar. Onlar "çıxarışı" olan vətəndaşlar kimi öz mənzillərini təmir də edir, yaşayır və yaxud mənfəət əldə etmək üçün hətta kirayə də verirlər. Bununla yanaşı hamı kimi qazdan, sudan, elektrikdən, liftlərdən, binaya gələn avtomobil və piyada yollarından, məhəllədən, bina müdiriyyətinin xidmətlərindən (zibilin atılması, blokun təmiri, mühafizəsi, təmizlənməsi və s.) istifadə edirlər. Bir sözlə kredit götürən zaman girov qoymaq imkanlarından başqa hər bir hüquqdan eyni dərəcədə istifadə edə bilirlər; əvəzində isə:

a) Alqı-satqı zamanı çox sadə şəkildə MTK-nın protokolu dəyişdirilir və notarius xərclərindən yayınırlar.

b) Alqı-satqı rəsmiləşmədiyindən, mənzil satışından əldə edilən gəlir, Vergi orqanlarının nəzərindən yayındırılır.

c) Mülkiyyət sənədləri (Çıxarışları) olamadığı üçün ilbəil əmlak vergisini də ödəməkdən "azad" olurlar.

d) Mülkiyyət sənədləri olan mənzil sahibləri ilə tam eyni hüquqlardan bəhrələndikləri üçün, xərc çəkib "çıxarış" almaqda ümumiyyətlə maraqlı olmurlar.

Nəzərə alsaq ki, Bakı şəhərindəki yeni tikililərin təxminən 55%-də "çıxarış"ı olmayan fiziki şəxslər yaşayır, demək, milyonllarla kv.m ərazi vergiyə cəlb oluna bilmir və bu üzdən də miyonlarla manat vəsait bələdiyyələrin büdcəsindən kənarda qalır.

***BELEDİYYE.İNFO***

## Bələdiyyə büdcə gəlirlərini artırıb

Səbail bələdiyyəsinin sədri Firdövsi Cəbrayılovun Belediyye.info saytına verdiyi məlumata görə, cari ilin 9 ayı ərzində bələdiyyənin 331 min manat büdcə gəliri olub. Gəlirlər sırasında fiziki şəxslərdən torpaq vergisi 5676 manat, fiziki şəxslərdən əmlak vergisi 61987 manat , bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin və digər daşınmaz əmlakın özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən daxil olan ödənişin həcmi 207 min manat, bələdiyyə ərazisində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqlarından və bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya muvəqqəti dayanacaqları üçün ödəniş 19 min manat təşkil edib.

Sədrin sözlərinə görə, bələdiyyənin vergi müfəttişlərinin və məhəllə komitələrinin əhali arasında apardığı maarifləndirmə işlərinin nəticəsində ötən ilin 9 ayı ilə müqayisədə əmlak vergisinin, mehmanxana və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişin, o cümlədən avtomobil dayanacaqları üçün ödənişin həcmi nisbətən artıb.

Sədrin fikrincə, ilin sonundək bələdiyyə orta aylıq büdcə gəlirini ortalama rəqəmlə 50 min manatadək artırmaq niyyətindədir.

***Belediyye.info***

## Şəmsi Əliyev: "Vətəndaşların könüllü şəkildə vergiləri ödəməməsi bələdiyyənin fəaliyyətinə mənfi təsir göstərir"

"Bələdiyyə tərəfindən hər hansı bir yenilik edilməyib".Bu fikirləri Belediyye.info saytına Goranboy bələdiyyəsinin sədri Şəmsi Əliyev deyib. Əmlak və torpaq vergisinin toplanması ilə bağlı məsələyə toxunan sədr bildirib ki, əhaliyə bildirişlər paylanılıb. Onun sözlərinə görə, əhali tərəfindən vergilər ödənilir, amma proses zəif gedir: "Maarifləndirmə tədbirləri çərçivəsində əmlak vergisi ilə bağlı vətəndaşlarla görüşmüşük. Onlara yeni qaydalar haqqında izahatlar verilir. Amma bildirişlər insanlara verəndən sonra sənəddə olan əmlak vergisi ilə bağlı, yəni bunun nə olması ilə bağlı müraciət edirlər. Ola bilsin ki, əhali hələ bu qaydalara tam alışmayıb və gələcəkdə əminəm ki, belə məsələlər aradan qalxacaq. Vətəndaşların könüllü şəkildə vergiləri ödəməməsi bələdiyyənin fəaliyyətinə mənfi təsir göstərir".

Ş.Əliyev deyib ki, bələdiyyənin bir sıra qurumlara borcu var: "Elektrik enerjisi ilə bağlı borcumuzu tam ödəyib qurtara bilməmişik. Amma çalışırıq ki, Dövlət Sosial Müdafiə Fonduna borcumuz qalmasın. Çünki belə olan halda bank hesabımıza sərəncam qoyulur və həmin borc hesabımıza daxil olan məbləğdən tutulur. Bələdiyyə işçilərinə isə elə bir borcumuz yoxdur, avqust ayının əmək haqqıdatezliklə ödəniləcək".

Bələdiyyə sədri deyib ki, vətəndaşlar zəbt etdikləri torpaqları hərrac vasitəsilə almaq üçün müraciət ediblər: "Bizdə bununla bağlı sənədləri hazırlayıb Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə vermişik. Lakin hərrac komissiyasının fəaliyyəti tam bərpa olmadığına görə, bu iş də bir az ləngimələr var".

***Bəxtiyar Məmmədli***

## Bələdiyyələr maarifləndirilir

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzi Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin "Cənubi Qafqazda yerli özünüidarəetmə proqramı" çərçivəsində bələdiyyələri maarifləndirmək məqsədi ilə silsilə tədbirləri bölgələrdə davam etdirməkdədir. Cari ilin əvvəlində keçən illərdə olduğu kimi növbəti 2 metodiki vəsait işlənib hazırlanmış və yüksək tirajla nəşr edilmişdir. Bu metodiki vəsaitlər "Bələdiyyələrin statusu: hüquq və vəzifələri" və "Bələdiyyə büdcəsinin planlaşdırılması: şəffaflıq və hesabatlılıq" mövzularını ətatə edir. Avqust ayının sonunda kitablar geniş ictimaiyyətə təqdim edildikdən sonra, regionlarda silsilə seminarlara start veriliB. Belə ki, 3 sentyabrda Xaçmaz, Şabran və Siyəzən bələdiyyələri üçün Xaçmaz şəhərində, 4 sentyabrda Quba və Qusar bələdiyyələri üçün Quba şəhərində, 8 və 9 sentyabr tarixlərində Sabirabad, Hacıqabul, Şirvan, Salyan və Neftçala rayonlarının bələdiyyələri üçün Şirvan şəhərində bələdiyyələr üçün regional ədliyyə idarələrinin dəstəyi ilə təşkil edilmiş seminarlarda hər iki metodiki vəsaitin təqdimatı keçirilmiş və kitablar müvafiq region bələdiyyələrə paylanılmışdır. Ümumilikdə bu seminarlarda 378 bələdiyyə sədri və müavini iştirak etmişdir. Qeyd edək ki, seminarların davamı 10 sentyabrda Masallı, Cəlilabad və Yardımlı bələdiyyələri üçün Masallı şəhərində, 11 sentyabrda isə Astara, Lənkəran və Lerik bələdiyyələri üçün Astara şəhərində baş tutacaqdır.

***Belediyye.info***

# İxtiyar Nəcəfov: "Latviya bələdiyyələri ilə qardaşlıq əlqələrimiz qurulub"

Suraxanı Rayonu Qaraçuxur Bələdiyyəsi qəsəbədə daim abadlıq-quruculuq işlərini həyata keçirməklə seçicilərinin qarşılaşdığı problemlərin həllinə çalışır. Bununla yanaşı Suraxanı Rayon İcra Hakimiyyətinin həyata keçirdiyi bütün layihələrin icrasında fəal iştirak edir.

Bəs cari ilin birinci yarısında bələdiyyə hansı addımları atıb. Bu və digər suallarımıza bələdiyyə sədri İxtiyar Nəcəfov aydınlıq gətirib.

- Bələdiyyəmiz iş fəaliyyətinə görə daim seçicilərinin problemlərinin həllinə çalışır. Hər bir sakinimiz bələdiyyənin inzibati binasına gələrək öz problemlərini qaldıra bilər. Bunun üçün yeni təmir etdiyimiz binada hər bir şərait yaratmışıq. Əlavə edim ki, bələdiyyəmizin inzibati binasını hələ 2002-ci ildə istifadəyə vermişik. 2002-ci ilin sentybarında istifadəyə verilən inzibati binamız respublikada ilk inzibatı binalardandır. Bu gün binamızda fəaliyyət üçün hər bir şəraitimiz var.



- Qəsəbənizdə bu gün hökm sürən təmizlik işlərində bələdiyyənizində xüsusi yeri vardır. Bu istiqamətdə hansı işləri həyata keçirmisiniz?

- Deməliym ki, qəsəbənin təmizliyi bələdiyyənin daim diqqət mərkəzində saxlanılır, məişət tullantılarının daşınmasına nəzarət olunur, ərazidə olan həyət evlərində zibil meydançalarında konteynerlərin təmir olunması və dəyişdirilməsi işləri bələdiyyə tərəfindən yerinə yetirilir.

Qaraçuxur qəsəbəsi Ə.Mehbalıyev küçəsində mövsümü yaradılmış kənd təsərrüfatı yarmarkasının ətraf ərazisinin abadlaşdırılması və bunaların fasad hisssəsinin rənglənməsi işləri yerinə yetirilib.Bələdiyyənin balansında olan park və xiyabanlarda abadlıq və təmizlikişlərinin aparılması və gündəlik olaraq yaşıllıqların, ağac və gül kollarının suvarılması tərəfimizdən yerinə yetirilir. Habelə Qaraçuxur qəsəbəsi V.Quliyev, Hacınski, Mədən küçəsində, Şərq və Şimal yaşayış sahələrində zibilxanalar ətrafına tökülmüş iriqabaritli tullantıların yığışdırılıb daşınması işləri də yerinə yetirilib. Ən əsas fəaliyyətimizdən biri də C.Qurbanov küçəsində "Şəhidlər bulağı" kompleksində kanalizasiya xəttinin təmir işlərinin aparılması olub.

Bu gün yayın qızmar vaxtinda bələdiyyəmizin həyata keçirdiyi əsas işlərdən biri mövsümlə əlaqədar yanğın təhlükəsinin qarşısını almaq məqsədilə bələdiyyənin balansında olan park və xiyabanlarda qurumuş otların biçilib mütəmadi olaraq yığılmasıdır.

-Hər il olduğu kimi bu ildə Sizin bələdiyyəniz ərazidə həyata keçirilən ağacəkmə kampaniyasında yaxından iştirak edib. Bu barədə nə demək olar?

-Həftənin şənbə günləri rayonun keçirdiyi ağacəkmə kompanyalarında iştirak edərək 318 saylı məktəbin ətrafında 170, bələdiyyə parklarında 290 ədəd şam və zeytun ağaclarının əkilməsi həyata keçirilib.

-Məlum olduğu kimi, Sizin Latviya respublikasının bələdiyyələri ilə qardaşlıq əlaqələri mövcuddur.

-Bəli. Bu günlərdə Nümayəndə heyyətimiz Latviyadan qayıdıb. Bundan əvvəl isə Latviya Respublikası Zemqaliya regionu və Yekabplis şəhər bələdiyyəsindən gəlmiş bir qrup nümayəndə heyəti Qaraçuxur bələdiyyəsinin qonağı olmuşdu. Maraqlı görüşlərimiz və təcrübə mübadiləmiz oldu.

# Daim sakinlərimizin sosial problemlərinin həllinə çalışırıq



*Nərminə Əliyeva*
*Şağan bələdiyyəsi sədri*

Cari ilin avqust ayında Şağan bələdiyyəsinin iclası keçirilib. İclasda müzakirə edilən məsələlərdən biri də bələdiyyənin altıaylıq fəaliyyətinə yekun vurmaq olub. İclasda sədr Nərminə Əlieyavnın çıxışı dinlənilib. Bələdiyyə üzvlərinin yekdil qərarıyla sədrin hesabatı müsbət qarşılanıb.

Sədr Nərminə Əlieyavnın Belediyye.info saytına daxil olan hesabatını oxucuların diqqətinə çatdırırıq:

***

- Şağan bələdiyyəsi tərəfindən 2015-ci ilin 6 ayı ərzində 89 ədəd məktub göndərilib. Bunlardan, 19 ədədi Xəzər Rayon İcra Hakimiyyətinə,10 ədədi Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinə, 60 ədədi isə digər idarə və təşkilatlara ünvanlanıb.Bələdiyyənin ünvanına 2015-ci ilin 6 ayı ərzində 80 ədəd məktub daxil olub.Bunlardan;25 ədədi Xəzər Rayon İcra Hakimiyyətindən, 9 ədədi Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzindən, 46 ədədi isə digər idarə və təşkilatlardan daxil olmuşdur.Cari ilin I yarımilliyi ərzində ümumilikdə, 9 ədəd ərizə daxil olmuşdur ki, bunlardan, 4 ədədi bələdiyyədə vergi ödəyicisi kimi qeydiyyata götürülməsi ilə əlaqədar, 5 ədədi isə müxtəlif mövzulu,şikayət və ərizələrdir. Daxil olan bütün müraciətlərə qanunvericiliyə uyğun qaydada cavab verilib.Bələdiyyənin müvafiq komissiyaları tərəfindən müxtəlif mövzularda 8 ədəd akt tərtib edilib.

***

Bələdiyyə üzvlərinin 2015-ci ilin 6 ayı ərzində 7 iclası keçirilib. Bu iclaslarda ümumilikdə, 17müxtəlif məsələ müzakirə edilərək, hər biri haqqında müvafiq qərar qəbul edilib. İclaslarda bələdiyyə üzvləri tam aktivlik göstərərək bütün məsələlərin müzakirəsində yaxından iştirak edib. İclasın protokolları qanuna müvafiq olaraq, inzibati-nəzarət qaydasında baxılması üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında Bələdiyyələrlə İş Mərkəzinə göndərilib.

***

Qəsəbə ərazisində uzun illər ərzində təmizlənməyən, yığılıb qalmış böyük zibilliklər tamamilə təmizlənib. Bu gün bələdiyyənin təşkilatçılığı ilə mütəmadi olaraq həftədə 3 dəfə məişət tullantılarının daşınması təşkil edilib. Hazırda, Bələdiyyə və Qəsəbə Nümayəndiliyi Xəzər rayon MKTB ilə birlikdə məişət tullantılarının daşınıb-zərərsizləşdirilməsi üçün qəsəbəyə xüsusi maşın cəlb edərək, yaşayış evlərinin sakinləri ilə fərdi müqavilənin bağlanması, ərazidə daşınan zibil qutularının yerləşdirilməsi və mütəmadi olaraq qəsəbə ərazisindən məişət tullantılarının daşınıb-təmizlənməsi işini təşkil etməkdədir. Qəsəbə ərazisinin məişət tullantılarından təmizlənməsi işinin təşkil edilməsi məqsədilə, bələdiyyədə əmək haqqısı ştat cədvəlinə uyğun olaraq,ödənilməklə 1(bir) nəfər fəhlə işə cəlb olunaraq, qəsəbə ərazisinin təmizliyinə müntəzəm nəzarət olunur.

***

Qəsəbədə Mədəniyyət evinin tikintisi üçün torpaq sahəsinin ayrılması məqsədilə Mədəniyyət və Turizm Naziriyinə edilmiş rəsmi müraciətə əsasən, artıq müasir tələblərə cavab verən"Şağan mədəniyyət mərkəzi və kitabxanası" nın tikintisinin cari ilin sonuna kimi qəsəbə sakinlərinin istifadəsinə verilməsi planlaşdırılır. Ölkə prezidentinin tapşırığı ilə Dövlət Proqramına uyğun olaraq uzun illərdən bəri qəsəbə əhalisinin içməli su probleminin həll edilməsi məqsədilə, "Azərsu ASC" tərəfindən qəsəbədə yerləşən yaşayış evlərinə su xəttinin çəkilməsi işinə başlanılmış və artıq qəsəbənin əksər küçələrinə su xətti çəkilmiş, sayggaclar quraşdırılmışdır. Bu sahədə işlər davam etdirilir.

***

Qəsəbədə yaşayan aztəminatlı, kimsəsiz, şəhid, Çernobıl və Qarabağ müharibəsi əlilləri təbəqəsinə birdəfəlik maddi yardımlar edilib.

"İlaxır çərşənbəsi və Novruz bayramı" münasibəti ilə "Azersun Holding" Şirkətinin rəhbərliyinə rəsmi məktub ünvanlanaraq,şirkətin istehsal etdiyi gündəlik ərzaq tələbatı məhsullarından qəsəbənin aztəminatlı, kimsəsiz, şəhid, Çernobıl və Qarabağ müharibəsi əlilləri təbəqəsinə ərzaq yardımı edilib.

***

Hesabat dövründə bələdiyyəmiz aşağıdakı mədəni-kütləvi tədbirlərin təşkilatçısı olmaqla bu tədbirlərdə həm də, yaxından iştirak etmişdir:

Novruz bayramı münasibəti ilə Xəzər RİH tərəfindən təşkil edilmiş el şənliyində;

- Şağan qəsəbəsində Qala divarları yanında qəsəbə sakinləri üçün Novruz şənliyində;
- 26 aprel 2015-ci il tarixdə qəsəbədə yaşayan Çernobıl əlilləri ilə görüşün keçirilməsində;
- Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə 04 may 2015-ci il tarixdə Xəzər RİH təşkil etdiyi "Gül bayramında";
- Şağan bələdiyyəsinin gənclərdən ibarət futbol komandasının Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Futbol üzrə rayon turnirində iştirakının təmin olunmasında;
- 15 may 2015-ci il tarixdə "Beynəlxalq ailə günü" münasibəti ilə 124 saylı orta məktəbdə təşkil edilmiş "Məktəb-Ailə" mövzusunda tədbirin keçirilməsində;
- May ayında 3 saylı internat evində təşkil olunmuş oğlan uşaqlarının sünnət mərasimində;
- "1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibəti ilə 212 saylı bağçada ədəbi-bədii gecənin keçirilməsi və 3 saylı internat evində nahar süfrəsinin təşkil edilməsində.
- Ən nəhayət "Ramazan bayramı" münasibətilə 3 saylı internat evində nahar süfrəsi təşkil edilib.

***

Hesabat dövründə Şağan Bələdiyyəsinin büdcə gəlirləri 9949,0 manat olub. Bu məbləğin3065,0 manat torpaq vergisi, 5461,0 manat əmlak vergisi, 348,0 manat torpaqların icarəyə verilməsindən icarə haqları, 1075,0 manat dövlət büdcəsindən ayrılmış məqsədli maliyyəşməüzrə təşkil edib. Ötən dövr ərzində bələdiyyənin büdcə xərcləri- 9535,0 manatabərabər olub.

***

Şağan bələdiyyəsi qəsəbədə perspektivdə duran aşağıdakı məsələlərin həllini nəzərdə tutur:

1. Yeni "Şağan mədəniyyət evi və kitabxanası"nın cari ilin sonuna kimi tikilib-istifadəyə verilməsi;
2. Qəsəbədə tam olaraq su və kanalizasiya sisteminin qurulmasının təşkili;
3. Qəsəbə ərazisinin məişət tullamtılarından "Təmiz Şəhər ASC" -nin yeni "Məişət tullantılarının təkrar emalı" zavodu tərəfindən təmizlənməsinin təşkil edilməsi;
4. Bələdiyyə ərazisindəki torpaq sahələrinin inventarizasiyası, yerli vergi ödəyicilərinin sayının müəyyən olunması, vergi ödəyicilərinin vahid elektron qaydada uçota alınmasının başa çatdırılması.
5. Yerli vergi ödəyicilərinin tam uçota alınması ilə bələdiyyə büdcəsinin debitor borclarının dəqiq müəyyən olunaraq, bələdiyyənin yeni uçot standartları sisteminə tamkeçidin və mühasibat uçotunun həmin standartlara uyğun qurulmasının təmin olunması.

# Habil HƏMİDOV: "Məqsədimiz qəsəbəmizi daha abad görməkdir "

Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafında Xəzər rayonununda öz payı vardır. Xüsusi ilə qeyd etməliyik ki, Binə bələdiyyəsi də öz növbəsində rayon bələdiyyələri arasında daim inkişaf etməkdə olan rayonda aparılan abadlıq quruculuq işlərində öz töhvəsini verməkdədir. Bir məqamı da əlavə edim ki, ölkə bələdiyyələri içərisində ilk olaraq özünə müasir tipli inzibati bina məhz Binə bələdiyyəsi inşa etdirib. Bu gün faktiki olaraq inzibati binada bələdiyyənin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Bəs 2014-cü il seçkilərindən sonra formalaşan Binə bələdiyyəsi ötən altı ayda hansı addımlar atıb? Seçicilərinin problemləri öz həllini necə tapır?

Bu və digər suallara aydınlıq gətirmək üçün Binə bələdiyyəsinin sədri Habil Həmidovla görüşdük. Söhbətdə həm qəsəbədə mövcud olmuş problemlərdən, onların həlli yollarından həmdə tətbiq edilən yenilklərdən danışdıq.

- Bu gün əvvəlki illərdən fərqli olaraq Binə bələdiyyəsi qəsəbənin sosial həyatında daha fəal iştirakını davam etdirir. Deməliyəm ki, Binə bələdiyyəsi qəsəbədə abadlıq, təmizlik işlərini daim nəzarətdə saxlayır. Qəsəbədə yolların dağılmış hissələrinə imkan daxilində bərpa işləri həyata keçiririk. Qəsəbənin mərkəzi magistral yolunun 1200 m hissəsində təmir bərpa işləri aparılaraq yola 400m3 qum-daş qırıntısı tökülərək asfalt bərkidən katokla əzilərək qreyder vasitəsi ilə hamarlanmış, katokla yenidən bərkidilmişdir. Həmin əraziyə 100 m3 asfalt qırıntısı tökülərək qreyderlə hamarlanmışdır.




Bundan başqa qəsəbənin daxili torpaq yollarına qreyder salınaraq hamarlama işləri aparılıb. Qəsəbənin BEA zavodu ətrafında yaşayan sakinlərin müraciətini nəzərə alaraq qış aylarında məhəllələrə toplanmış yağış sularını təmizləmək məqsədi ilə bələdiyyə tərəfindən nasos və şlanq alınaraq əhaliyə verilmişdir.

Bələdiyyənin inzibati binası qarşısındakı bağda və şəhidlərin xatirəsinə salınmış parkda 300m2yaşıl örtük döşənmiş və müxtəlif ağaclar , bəzək kolları əkilmişdir.

Bundan əlavə yaz aylarında qəsəbə daxilindəki ağacların quru budaqları kəsilmiş, gövdələri əhənglə ağardılmışdır. Məhəllədaxili yolların kənarındakı alaq otları vurularaq daim təmizlənir.

Bələdiyyəmiz aztəmiantlı ailələridə unutmur. Aztəminatlı ailə kimi qeydiyyata alınmış qəsəbə sakinlərinə müxtəlif həcmdə maddi yardımlar edilib.

Cari ilin altı ayı ərzində əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində Binə bələdiyyəsi xeyli işlər görmüşdür. Qəsəbədəki 4 nəfər 20 Yanvar Şəhid ailəsinin hər birinə 50 manat olmaqla 200 manat məbləğində, ərizə ilə müraciət etmiş 4 nəfər qəsəbə sakininin hər birinə 30 manat məbləğində maddi yardım edilmişdir. Qəsəbə sakini Məcli Tatyana Anatoliyeviçin dəfn olunması məqsədi ilə bələdiyyə tərəfindən 200 manat pul vəsaiti ayrılmış və onun dəfni təşkil edilmişdir. Böyük Vətən Müharibəsi dövrü arxa cəbhə veteranları da unudulmamışdır. Qəsəbədəki Mədəniyyət Mərkəzində onlarla görüş təşkil olunmuş, veteranlardan Əliyev Pənah, Novruzova Anna və Şiriyev Bilala -hər birinə 50 manat olmaqla cəmi 150 manat pul vəsaiti onlara təqdim edilmişdir. Sonra böyük konsert proqramı keçirilmiş və Azərbaycan Televiziyası ilə işıqlandırılmışdır.

Aprel ayında qəsəbədəki tam orta məktəblərin 9-11-ci sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş inşa yazı müsabiqəsibnin keçirilməsi haqqında Binə bələdiyyəsi qərar qəbul etmişdir. Məktəblərdə müsabiqə keçirilərək qaliblərə 550 manat məbləğində mükafat verilmiş və Azərbaycan televiziyası ilə çəkiliş aparılaraq işıqlandırılmışdır. Məktəblər arasında 1-ci yeri tutmuş qaliblərin öz aralarında keçirilən yekun turun qalibi 149 saylı tam orta məktəbin 10 a sinif şagirdi Ləman Şükürlü orta məktəbi qurtarana qədər hər ay 30 manat təqaüd verilməsi haqqında qərar qəbul edilmişdir.

Binə bələdiyyəsi qəsəbədəki yeniyetmə və cavanların asudə vaxtlarını səmərəli keçirilməsini də diqqət mərkəzində saxlayır. Qəsəbənin yeniyetmələrindən ibarət futbol komandasına daim öz köməkliyimiz olunmuşdur. Komandanın AFFA-ya üzvlük haqqını ödəmək məqsədi ilə büdcədən 600 manat pul vəsaiti ayrılaraq ödənilmişdir.

Qəsəbəki tarixi abidələrin qorunmasını da Binə bələdiyyəsi diqqət mərkəzində saxlayır. Belə ki, qəsəbədəki "Mövsüm Səlim" məscidinin qorunub saxlanılmasına hər ayda 150 manat pul vəsaiti büdcədən ayrılaraq məscidə verilmişdir. Məsciddəki telefonun abunə xərci də Binə bələdiyyəsi tərəfindən ödənilir.

Binə bələdiyyəsi 6 ayda 11 ümumi yığıncaq keçirmişdir, 45 məsələ müzakirəyə çıxarılaraq müxtəlif qərarlar qəbul edilmişdir. Abadlıq işlərinin aparılmasına - 6 məsələ, mədəni tədbirlərin keçirilməsinə -10 məsələ, Ərizə və məktubların müzakirəsinə - 8 məsələ, təşkilati məsələlərə- 21 məsələ həsr edilərək müzakirə edilmişdir və müvafiq qərarlar qəbul edilmişdir.

Altı ay ərzində müxtəlif idarə və təşkilatlardan Binə bələdiyyəsinə 138 məktub, vətəndaşlardan isə 52 ərizə daxil olmuşdur. RİH-dən 52, nazirliklərdən 15, müxtəlif idarə və təşkilatlardan isə 71 məktub daxil olmuşdur.Daxil olan ərizə və məktubların bir qismi vətəndaşlara maddi yardım olunması ilə bağlıdır. Ərizə ilə müraciət edənlərin çox hissəsi məcburi köçkün, şəhid ailələri və Qarabağ müharibəsi veteranlarıdır.6 ay ərzində Binə bələdiyyəsi tərəfindən 420 vətəndaş qəbul edilmiş, onların müraciətləri diqqətlə dinlənilmiş, yerində həll olunası məsələlər həll edilmiş və aidiyyatı qurumlara müraciətlər edilmişdir.

Bələdiyyəmizin əsas məqsədi sakinlərimizin maddi-rifah halının yaxşılaşdırlmasına və qəsəbəmizin daha abad və yaraşıqlı olmasına çalışmaqdır.

## Xəbərlər

### Türk Dünyası Bələdiyyələr Birliyinin Baş Məclisinin IV toplantısı keçirildi



Türk Dünyası Bələdiyyələr Birliyinin (TDBB) Baş Məclisinin IV toplantısı İstanbul şəhərində sentyabr ayının 9-da keçirilmişdir. Bu barədə Belediyye.info saytına məlumatı təşkilatın sədr müavini, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə verib. Tədbirdə birliyin illik hesabatı dinlənilmiş, ötən illərdən fərqli olaraq Birliyə üzv ölkələrlə qarşılıqlı əlaqələrin və əməkdaşlığın genuşlənməsi məsələsi xüsusi olaraq vurğunlanmıdır. Tədbirdə çıxış edən M.Səlimzadə ötən il Azərbaycanın səmərəli əməkdaşlıq etdiyi Türk Dünyası Bələdiyyələr Birliyinin təşəbbüsü və dəstəyi ilə İstanbulda "Türk dünyası" kitabının nəşr edilməsini xüsusi olaraq qeyd etmişdir. Bildirmişdir ki, kitabda türk dünyasının 2000 ildən artıq dövr ərzində mövcud olmuş 12 dahi şəxsiyyəti, o cümlədən ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı müfəssəl məlumat verilmişdir. Birlik ilə sıx əməkdaşlıq ötən ildə səmərəli davam etdirilmiş. Hər il olduğu kimi İstanbul şəhərində bələdiyyə üzvləri və qulluqçuları üçün seminarlar keçirilmiş, təcrübə mübadiləsi aparılmışdır. Ötən illərdən fərqli olaraq Türkiyənin yerli özünüidarə sahəsindəki təcrübəsini öyrənmək məqsədilə Azərbaycandan gənc bələdiyyə nümayəndələri tədbirlərə cəlb edilmişlər. Eyni zamanda, 2014-cü ildə Birliyin nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı nümayəndələr Ədliyyə Nazirliyində, Azərbaycan şəhər, qəsəbə, kənd bələdiyyələrinin milli assosiasiyalarında və bələdiyyələrdə müxtəlif görüşlər keçirmişlər.

Tədbirdə Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.

Qeyd edək ki, birliyin 25 ölkədən 500 artıq üzvü vardır. Ölkəmizi birlikdə 327 bələdiyyə təmsil edir.

*Belediyye.info*

### Nəsimi və İzmit bələdiyyələri "qardaşlaşır"

Nəsimi bələdiyyəsinin sədri Nazim Qaraxanovun Belediyye.info saytına verdiyi məlumata görə, sentyabrın 14-16-ı aralığında Türkiyənin İzmit bələdiyyəsinin nümayəndə heyətinin Bakıya səfəri planlaşdırılır. Nəsimi bələdiyyəsinin dəvətiylə gercəkləşdirilən səfərdə Türkiyə tərəfdən nümayəndə heyətinə İzmit /KOCAELI Bələdiyyəsinın başçısı Nevzat Doğan rəhbərik edir. Nümayəndə heyətinin Nəsimi Rayon İcra Hakmiyyətində və Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzində, habelə Milli Məclisin Regional Məslələlər Komitəsində görüşləri nəzərdə tutulub. Nəsimi RİH-də keçirilən görüşdə isə Nəsimi bələdiyyəsiylə İzmit bələdiyyəsi arasında "Qardaşlaşmış bələdiyyə münasibətlərinin yaradılması haqqında" niyyət protokolu imzalanacaq.

Sədrin sözlərinə görə, bələdiyyənin bugün keçirilən iclasında da məhz səfərin proqramı və səfərlə bağlı digər məsələlər müzakirə olunaraq təsdiqlənib.

Qeyd edək ki, niyyət protokolunun imzalanmasının əsas məqsədi isə iki bələdiyyə arasında qardaşlıq, dostluq və mədəni əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsidir.

*Belediyye.info*

### Rəsulzadə Bələdiyyəsi iməcilik keçirib

M.Ə.Rəsulzadə Bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, bələdiyyə tərəfindən hər həftənin sonuncu iş günü ərazidə iməcilik tədbirləri həyata keçirilir. Bələdiyyə tərəfindən 22 avqust 2015-ci il tarixində növbəti iməcilik təşkil edilib. "Baksol yolu" küçəsində geniş miqyaslı təmizlik işləri aparılıb. M.Ə.Rəsulzadə Bələdiyyəsinin əməkdaşlarının həyata keçirdikləri iməcilik nəticəsində sözügedən ərazi ünvansız atılmış məişət tullantılarından və iriqabaritli tullantılardan təmizlənib. Qeyd edək ki, hər iməcilik tədbirlərinə ərazidə məskunlaşan sakinlərdə iştirak edirlər.

Məlumatda daha sonra qeyd edilir ki, küçənin sakinlər tərəfindən zibillənməməsi üçün bələdiyyə tərəfindən əraziyə əlavə zibil qutularının qoyulacağı bildirilir.

*Belediyye.info*

### Lənkəran bələdiyyəsi komissiya yaradıb

"Cari ildə əmlak vergisinin yığımında irəliləyişə nail olmaq üçün bələdiyyənin yanında komissiya yaradılıb. Komissiaynın əsas məqsədi vətəndaşlara məxsus əmlakı inventarlaşdırmaq və onları əmlak veriginə cəlb etmək, o cümlədən bildirişləri vaxtında paylamaqdır"- bunu Belediyye.infoya açıqlamasında Lənkəran bələdiyyəsinin sədri Eldar Hüseynov bildirib.

Ötən ilin avqust ayında prezident sərəncamından sonra əmlak verigisinin yığımında ciddi dəyişiklik oldu. Prezidentin bu addımı həm bələdiyyə sistemində şəffaflığın təmin edilməsində, həm də yerli büdcəyə daxil olmalarda xeyli irəliləyişə səbəb olacaqdır.

Sədrin sözlərinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğvindən sonra hərrac komissiyalarının yenidən təşkil edilməsi və bu prosesin ləngiməsi nəticədə bələdiyyənin büdcə daxilomalarna mənfi təsir edib. Bununla yanaşı bələdiyyəyə müraciət edən vətəndaşlara da konkret cavab verməkdə çətinlik çəkirik.

Qeyd edək ki, cari ilin altı ayı ərzində Lənkəran bələdiyyəsinin altı iclası keçirilib. Altı ay ərzində bələdiyyəyə 56 məəktub daxil olub ki, onunda 36-sı idarə və təşkilatlardan, 20 isə vətəndaşlardandır.

Eldar Hüseynov açıqlamasında bələdiyyənin büdcə gəlirlərinə də toxunub. Sədrin sözlərinə görə, bələdiyyənin altı ay ərzində 31718 manat büdcə gəliri olub. Onlardan 7062 manatı əmlak vergisindən, 806 manatı mehmanxana rüsumundan, 2100 manatı reklamlardan, 430 icarədən, 3270 torpaq satışından əldə edilib.

*Belediyye.info*

# BƏLƏDİYYƏ HƏYATI

BƏLƏDİYYƏLƏR YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DEMOKRATİK FORMASIDIR


# Milli hakimiyyət və idarəetmə orqanları arasında məsləhətləşmə və danışıqların effektiv mexanizmi



**_Qoşqar Məmmədov_**
**_Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədr müavini_**

Avropaya inteqrasiya Azərbaycanın könüllü və məntiqi olaraq seçdiyi yoldur. Bu yol Qərb sivilizasiyasına yaxınlaşmaq və ölkəmizi dünyanın ən öndə gedən dövlətləri səviyyəsinə yüksəltməkdən ibarətdir.

Qeyd olunan nailiyyətlərlə yanaşı ölkəmizdə yerli özünüidarəetmənin inkişafı və bu inkişafa çox əhəmiyyətli təsir göstərən Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının fəaliyyətlərinin gücləndirilməsi istiqamətində ciddi tədbirlər görülür.

2006-cı ilin sonunda ölkəmizdə "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası"-nın tələblərinə uyğun olaraq, sonralar Avropada "Azərbaycan modeli" kimi tanınmış Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları yaradılmışdır.

Assosiasiyalar fəaliyyətinin ilk illərində əsas qüvvələrini təşkilatlanma məsələlərinə, bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinə və təkmilləşdirilməsinə, yerlərdə dövlət proqramlarının icrasında və yerli əhəmiyyətli layihələrin reallaşmasında bələdiyyələrin iştirakının təmin olunmasına, yerli özünüidarəetmə orqanlarının cəmiyyətdəki rolunun və nüfuzunun gücləndirilməsinə yönəltmişlər. İlk olaraq assosiasiyaların təşəbbüsü və təşkilatçılığı ilə Bakıda və 51 rayon mərkəzində "Şəhər, Qəsəbə, və Kəndlərin sosial-iqtisadi inkişafında yerli əhəmiyyətli layihələrin həllində bələdiyyələrin iştirakı" mövzusunda ələdiyyə sədrlərinin toplantıları keçirilmiş, onların rayon şuraları və Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının Fəaliyyətini Əlaqələndirmə Şurası yaradılmışdır. Bu da ayrı-ayrı Bələdiyyələrin və Assosiasiyalarının birqə fəaliyyətinin səmərəliliyin artırılması baxımından kifayət qədər əhəmiyyətli olmuşdur.

Bələdiyyələri ən çox maraqlandıran və narahat edən məsələlərin çevrəsini müəyyən etmək üçün bələdiyyələrlə birbaşa görüşlər keçirilmiş, onların çoxsaylı təklifləri toplanıb ümumiləşdirilmiş və nəticədə məlum olmuşdur ki, bələdiyyələr üçün ən aktual problemlər onların fəaliyyətinin təkmilləşdirilməsi, mövcud qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi, Bələdiyyələrin maliyyə və iqtisadi potensialının artırılması, qabaqcıl iş təcrübəsinin öyrənilib yayılması, daimi xidmət sahələrinin açılması, mülkiyyətin artırılması və idarəedilməsi, yerlərdə sosial məsələlərin həlli ilə bağlıdır.

Sözsüz ki, hər bir dövlətdə mərkəzi hakimiyyətlə yerli və regional hakimiyyətlər arasında danışıqlıqların və aparılan müzakirələrin müsbət nəticəsi mövcud problemlərin və qaldırılan məsələlərin operativ həll olunması və sonda vətəndaşların istəklərinin yerinə yetirilməsidir. Bu istiqamətdə hesab edirəm ki, respublikamızda çox yaxşı ənənə vardır. Belə ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətini daha da gücləndirmək, yerli icmaların sosial sifarişlərindən irəli gələn layihələrin həlli zamanı bir sıra problemlərin aradan qaldırılması, qabaqcıl iş təcrübəsinin öyrənilməsi məqsədilə Bələdiyyə Sədrlərinin Ümumrespublika Toplantıları keçirilir. Həmin Toplantılar Milli Assosiasiyaların xətti ilə təşkil olunur və Prezident Administrasiyanın rəhbərinin və nazirlərin iştirakı ilə keçirilir. Müzakirə olunan məsələlərə vəzifəli şəxslər öz münasibətlərini bildirir və dəyərli tövsiyələrini verirlər.

Milli Assosiyaların 8 illik fəaliyyəti dövründə 3 böyük Ümumrespublika Toplantısı keçirilmişdir ki, bu da bələdiyyələrin fəaliyyətində növbəti bir təkan olmuş, toplantıların yekunları, Toplantılarda qəbul edilmiş tövsiyyələr, bir qayda olaraq, növbəti mərhələ üçün ölkə bələdiyyələrinin fəaliyyət proqramına çevrilmişdir.

Azərbaycanda hər il ənənəvi olaraq Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin təşəbbüsü ilə "Yerli Demokratiya Həftəsi"- tədbirləri keçirilir.

"Həftə"-lər ərzində yerlərdə "qaynar telefon xəttləri", "bələdiyyə poçtu" qutuları, xüsusi məlumat lövhələri quraşdırılır, "acıq qapı günləri", dəyirmi masalar keçirilir, tədbirlərdə gənclərin, qadınların və əhalinin daha fəal iştirakına xüsusi diqqət yetirilir, "vətəndaş bələdiyyə", "bələdiyyə-vətəndaş" əlaqələrinin geniş imkanlar yaradılır. Burada qaldırılan bəzi məsələlərin mərkəzi hakimiyyət orqanlarına çatdırılmasını məhz bələdiyyələr həyata keçirir.

Milli Assosiyalar fəaliyyət dövrü ərzində bələdiyyə qanunvericiliyi ilə bağlı Milli Məclisin qəbul etdiyi qanun layihələrinin hazırlanmasında aktiv iştirak etmiş Bələdiyyələrin maraqlarını təmin edən müddəaların qanun layihələrinə əlavə olunmasına nail ola bilmişdir.

Son 5 ildə 1 yeni qanun qəbul edilmiş, 9 qanunda dəyişiklik edilmiş, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 3 fərman verilmişdir. "Bələdiyyələrin statusu", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət", "Bələdiyyələrin maliyyəsinin əsasları", "Bələdiyyə torpaqlarının idarə edilməsi" və digər qanunlara edilmiş dəyşikliklər yerli özünüidarəetmənin gələcək inkişafında mühüm rol oynamaqla bir sıra problemlərin aradan qaldırılmasına imkan vermişdir. Milli Assosiyaların və bələdiyyə nümayəndələrinin həmin qanunların Milli Məclisin daimi komitə və plenar iclaslarında müzakirəsi zamanı fəal iştirak etmişlər.

Fəaliyyət dövrü ərzində Milli Assosiasiyaların Milli Məclis, aidiyyatı nazirlik və idarələrlə işgüzar əlaqələri daha da inkişaf etdirmiş, yerli özünüidarəetmə məsələləri ilə bağlı bir sıra bələdiyyə nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Milli Məclisin Reqional Məsələlər Komitəsi ilə birgə iş aparılmışdır.

Bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi qanunauyğun və şəffaf həyata keçirmək və bələdiyyə qulluğunun nüfuzunun gücləndirmək məqsədilə "Bələdiyyə qulluqçularının etik davranış qaydaları" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və "Bələdiyyə qulluğu haqqında" Qanunun müvafiq maddəsinə dəyişiklik edilmişdir. Əsas məqsəd isə bələdiyyə qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilməsi və yerli özünüidarəetmə orqanlarının və bələdiyyə qulluğunda səmərəliliyin artırılmasıdır.

Belə məsələlərdə biz Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya ilə məsləhətləşmələr aparır və müsabiqə keçirilməsi üçün metodiki tövsiyələrdən səmərəli istifadə edirik. Çünki, artıq həmin Komissiyada fəaliyyət istiqamətlərinə uyğun olaraq beynəlxalq təcrübə nəzərə alınmaqla xeyli vaxtdır ki, zəngin təcrübə əldə olunmuşdur.

Keçən il "Büdcə haqqında" Qanuna dəyişiklik edilməklə bələdiyyələrə subvensiya-yəni məqsədli pul ayırmalarının verilməsi nəzərdə tutulmuşdur. Məlumdur ki, bir sıra Avropa dövlətlərinin yerli özünüidarəetmə qurumları bu təcrübədən çoxdan istifadə edirlər. Düzdür, bizim ölkəmizdə ayrılacaq vəsaitin düzgün və ədalətli olaraq bələdiyyələr arasında bölünməsinə heç bir şübhəmiz yoxdur. Çünki, istənilən vaxt müvafiq dövlət orqanlarına birbaşa müraciət edə bilərik. Lakin, hesab edirəm ki, bəzi Avropa ölkələrində müsbət təcrübə vardır. Belə ki, Latviya təcrübəsindən yararlanmağın daha önəmli olduğunu qeyd etmək istərdik. Hər iki ölkənin Milli Assosiasiyalarının xətti artıq bəzi şəhər və qəsəbələrinin qardaşlaşmasına dair 12 müqavilə bağlanmışdır. Latviyalı həmkarlarımızın bu sahədə iş təcrübəsinin öyrənilməsi də əhəmiyyətlidir. Belə ki, istər Maliyyə Nazirliyinə, istər Nazirlər Kabinetinə və Parlamentə bu barədə təkliflərin verilməsi və müzakirələrin aprılması və xüsusən də bələdiyyələrin və ittifaqların etirazları olduğu təqdirdə rəylərinin müvafiq sənədlərə əlavə edilməsi təcrübəsi müsbət təcrübə kimi öyrənilə bilər.

# "Bələdiyyə ərazisində 4,5 km-lik məişət su xətti inşa olunur"

"Son vaxtlarda bələdiyyə tərəfindən 57 min manatlıq dəyərində içməli su xətti çəkilib və eyni zamanda bulaqlar tikilib". Bu sözləri belediyye.info saytına Qazax rayonunun Daş Salahlı bələdiyyəsinin sədri Mahir Quliyev deyib. Onun sözlərinə görə, hazırda bələdiyyə ərazisində 4,5 km-lik məişət su xətti inşa olunur: "Bu əsasən kəndin məişət suyuna ehtiyacı olan yerləri üçün nəzərdə tutulub. Sonuncu layihəni bələdiyyə Kənd İnvestisiya Layihəsi çərçivəsində həyata keçirir. Eyni zamanda kəndin ərazisində olan Şəhidlər Xiyabanının ərazisində abadlıq işləri həyata keçirilib, yol çəkilib və eləcə də yaşıllaşdırma işləri həyata keçirilib və ağaclar əkilib

O cümlədən Yaponiya səfirliyinin dəstəyi ilə Daş Salahlı kəndində tibb məntəqəsi tikilir. Demək olar ki, son tamamlanma işləri gedir. Qeyd edim ki, bu tibb məntəqəsi müasir avadanlıqlarla təchiz olunacaq".

M.Quliyev bildirib ki, yeni qaydalar əsasında əmlak və torpaq vergisi ilə bağlı əhaliyə bildirişlər paylanılıb: "Amma çətinliyimiz də az deyil. Beləki, əhali vergiləri könüllü şəkildə ödəməkdə maraqlı deyil. Bununla əlaqədar olaraq, əhatəli şəkildə vətəndaşlar arasında maarifləndirmə işləri aparırıq. Hətta kənd əhalisi ilə fərdi söhbətlərimiz olur. Hərdən olur ki, insanlar bu qaydaları başa düşməkdə çətinlik çəkir və biz onlara mövcud qərarda göstərilən hər bir məsələni izah edirik".

Bələdiyyə sədri deyib ki, Daş Salahlı bələdiyyəsi Qazax rayonunda bəlkə də yeganə özünüidarəetmə orqanıdır ki, heç hara bir qəpik borcu yoxdur: "Dövlət Sosial Müdafiə Fonduna edilən ödənişlər vaxtlı-vaxtında həyata keçirilib. Bir təşkilata borcumuz yoxdur. Eyni zamanda bələdiyyə əməkdaşlarının əmək haqları tam olaraq ödənir və heç bir gecikmələr olmur".

M.Quliyev deyib ki, icra hakimiyyəti ilə Daş Salahlı bələdiyyəsi arasında çox yaxşı əməkdaşlıq var. Onun sözlərinə görə, lazımi köməkliklər göstərilir: "Biz icra hakimiyyəti orqanları ilə sivil şəkildə sıx əməkdaşlıq edirik".

**_Bəxtiyar Məmmədli_**

# Bələdiyyə "Quba Meydanında" təmir işlərini həyata keçirib

Quba bələdiyyəsinin sədri Zakir Müsülümovun Belediyye.info saytına verdiyi məlumata görə, əvvəlki illərdə olduğu kimi, cari ildə də Quba şəhərində həyata keçirilən abadlıq, təmir, yaşıllaşdırma və tikinti işlərinin yüksək keyfıyyətlə və müasir dövrün tələblərinə uyğun yerinə yetirilməsi üçün bələdiyyə tərəfindən xeyli iş görülüb. Qanunvericilikdə edilən düzəlişlərdən sonra bələdiyyə büdcəsinə daxilolmalar ilin əvvəlində nisbətən azalsa da problemlərin ilin II yarısında öz həllini tapacağına əminik. Sədrin sözlərinə görə, cari ilin birinci yarısında Quba bələdiyyəsi tərəfindən Quba bazarı ətrafındakı küçələrdə qanunsuz yerləşdirilmiş köşklər sökülərək onların əvəzində müasir dövrün tələblərinə cavab verən standart ticarət köşkləri quraşdırılaraq əhalinin istifadəsinə verilib. Həmin ərazidə nəqliyyatın və piyadaların hərəkətini yaxşılaşdırmaq üçün küçələr qreyderlə hamarlanmış, əraziyə 30 yük maşını çınqıl döşənərək yayılıb:

"Daha sonra şəhərin "Quba Meydanı" mədəniyyət və istirahət parkmda fəvvarələrin motoru təmir edilmiş, işıq dirəkləri yenilənmiş, yaşıllıqlar qaydaya salınmış, oturacaqlar rənglənmiş və qazonlar qaydaya salınmışdır. Ötən 6 ay ərzində Quba Bələdiyyəsinin inzibati binasının daxili təmir edilmiş və iş otaqlarında müasir tələblərə cavab verən texniki avadanlıqlar yerləşdirilmişdir."

Şəhərdə aparılan abalıq işlərinə toxunan sədrin sözlərinə görə, şəhərin Memar Əcəmi küçəsində səkilər cari təmir edilmiş, həmçinin "Dədə Qorqud" meydanında səliqə-səhman və təmir işləri aparılmışdır. Bələdiyyə tərəfindən şəhərin Sülh prospektində, Fətəli xan, Qələbə küçələrində səkilərin və yolların hər gün süpürülərək məişət tullantılarından təmizlənməsi işinin müntəzəm olaraq həyata keçirilməsi üçün yerli büdcədən maliyyə vəsaiti ayrılır.

Cari ilin I yarısında yuxarıda sadalanan işlərin görülməsinə Quba Bələdiyyəsinin büdcəsindən 2035 manat maliyə vəsaiti xərclənib. Hazırda Quba Bələdiyyəsi tərəfindən M.Əzizbəyov küçəsində (Nügədi yolu) təmir işləri davam etdirilməkdədir.

# Qanunvericilikdə olan boşluqlar işimizə mane olur

Dövlətin göstərdiyi hərtərəfli qayğı və diqqət sayəsində bələdiyyələr günü-gündən inkişaf edir, möhkəmlənir, yerli məsələlərin həllində daha inamla iştirak edir. Bələdiyyələrin öz ərazisində iqtisadiyyatın inkişafına, infrastrukturun yaxşılaşdırılmasına verdiyi töhfələrin həcmi hiss olunacaq dərəcədə artır. Bu baxımdan Oğuz bələdiyyəsi də fəaliyyətə başladığı ilk gündən qarşıya qoyulmuş vəzifələri maksimum yerinə yetirməyə çalışır. Nəticədə cari ilin altı ay ərzində xeyli uğurlar qazanılıb. Görülən işlər barəsində əhaliyə ətraflı məlumatlar çatdırılaraq, yerli büdcə daxilolmalar və xərclər haqqında hər kəs məlumatlandırılıb. Növbəti görüləcək işlər ətrafında müzakirələr aparılmaqla, rəy və təkliflər dinlənildikdən sonra müvafiq qərarlar qəbul edilib.

Ötən 6 ay ərzində bələdiyyənin 8 iclası keçirilib. İclaslarda 39 məsələ müzakirə edilib. Müzakirəyə çıxarılan məsələlər arasında 4-cü çağırış bələdiyyə seçkilərində yeni seçilmiş bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, bələdiyyənin icra aparatının formalaşdırılması, daimi komissiyaların tərkibinin seçilməsi, yaz-yay mövsümünə hazırlıq, şəhərdə abadlıq, yaşıllaşdırma, təmir və tikinti işlərinin aparılması, fərdi yaşayış evlərinin, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə ərazidə binaların tikintisinə torpaq sahələrinin ayrılması və s. olub. Buraya bayram və sosial tədbirlərin keçirilməsini də əlavə etsək fəaliyyətimizin miqyası göz önündə canlanar.

İclaslarda həmçinin yerli büdcənin gəlirləri və xərcləri, bələdiyyə qərarlarının icrasının vəziyyəti, yerli büdcənin formalaşdırılması, icrası və digər məsələlər ətrafında araşdırmalar aparılaraq və müvafiq qərarlar qəbul edilib.

Bələdiyyə qanunvericiliyini əldə rəhbər tutan təşkilatımız qəbul edilən bələdiyyə aktlarını qəbul etdiyi andan 15 gün müddətinə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərərək, həmin təşkilatın tövsiyyələrini iclaslarda müzakirə etməklə və icra etmək üçün qəbul edib.

Yarım il ərzində bələdiyyə tərəfindən sosial baxımdan maddi vəziyyəti ağır olan bir qrup şəhər sakininə 690,0 manat məbləğində maddi yardım göstərilib.

Bələdiyyəmiz Oğuz-Şəki yolunun kənarında aparılan yaşıllaşdırma-ağacəkmə tədbirlərində fəallıq göstərmiş, müvafiq təşkilatlarla birlikdə şəhərin hər iki tərəfindən axan çay yataqlarının məişət tullantılarından təmizlənməsinə nail olunmuşdur. Hazırda şəhərimizin küçə və dalanlarında, xüsusən də yeni yaşayış massivində asfalt örtüyü salınır. Bələdiyyəmiz imkanları daxilində bu yolların qumlanması, ətrafının kol-kosdan təmizlənməsi və hamarlama-təmizlik işlərini həyata keçirir.

Bildiyiniz kimi dövlətimizin yeni qərarı ilə 2015-ci ildən vergi ödənişləri poçt, bank və ödənişi həyata keçirən digər təşkilatlar vasitəsi ilə həyata keçirilir. Yəni daha bələdiyyə işçiləri vergi toplayaraq qəbz təqdim edə bilməzlər. Bu üsul mütərəqqi olsa da bizim vergi ödəyiciləri könüllü olaraq vergi ödəmək məsələsinə laqeyid yanaşırlar. Onlar bir şeyi bilməlidir ki, əgər yerli büdcədə vəsait yoxdursa, deməli şəhərimizdə abadlıq işləri ləng yerinə yetiriləcək, sosial baxımdan maddi durumları ağır olan vətəndaşlara yardım etmək çətin olacaqdır. Odur ki, bu sahədə bütün idarə və təşkilatlar və seçicilər bələdiyyəyə köməklik etməlidir.

Bələdiyyə ərazisində 3 orta məktəb, 2 bağça, Şahmat və İdman məktəbləri fəaliyyət göstərir. Çalışırıq ki, müəllim və şagirdlərlə sıx təmasda olaq. Xüsusilə məzun olaraq ali və orta ixtisas məktəblərinə daxil ola bilməyən gənclərlə aparılan işə önəm veririk. Onların işlə təmin edilməsinə, asudə vaxtlarının təşkilinə, idmanla məşğul olmalarına şərait yaratmaq üçün səy göstəririk. Bunun üçün idman yarışları, görüşlər, disputlar təşkil edilir. Rayon Məşğulluq Mərkəzinin keçirdiyi Əmək yarmarkalarında onların iştirakına nail oluruq. Bu isə az da olsa öz effektini verir.

Görülən işlərlə yanaşı həllini gözləyən bir çox problemlərimiz var. Xüsusən yerli büdcənin təmin edilməsi sahəsində mövcud qanunvericilikdə olan boşluqlar işimizə çox mane olur.

Əminik ki, 2015-ci ili də böyük nailiyyətlərlə başa vuracağıq. Şəhərimizin sakinlərinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə qarşımıza qoyduğumuz vəzifələri yerinə yetirmək üçün əzimkarlığımızı iki qat artırmağa çalışacağıq.

**_Arif Cavadov_**
**_Oğuz bələdiyyəsinin sədri_**

# Sakinlərin göstərdiyi etimadı doğrultmaq niyyətindəyik

Lökbatan bələdiyyəsi Qaradağ Rayon İcra Hakimiyyəti tərəfindən qəsəbədə aparılan abadlıq-quruculuq işlərində daim yaxından iştirak edir. Ötən səkkiz ay ərzində qəsəbədə aparılan sosial-iqtisadi məsələlərin həllində Lökbatan bələdiyyəsi də öz tövhəsini verib. Bu sahədə əsas fəaliyyət istiqamətlərindən biri məhəllədaxili ərazilərdə təmizlik işlərinin həyata keçirilməsi və binadaxili yolların asfaltlaşdırılmasıdır.



Belə ki, bələdiyyə tərəfindən H. Məmmədov küçəsi 1, 5 saylı binalarının yaxınlığında, Nizami küçəsi 5 ünvanında, S.Orucov döngəsində və S.Orucov küçəsi 39 saylı binanın yaxınlığında dörd ünvanda zibil qutularının yerləşdirliməsi üçün meydança tikilərək istifadəyə verilib. B.Niftəliyev küçəsi, VIII massivdə 3800 m2 gil-lay qatı çıxarılaraq ərazidə bərkitmə işləri aparılıb.S.Orucov küçəsi, Musəvi küçəsi və III massiv I küçədə 5 ədəd kanalizasiya lyuku bərpa edilib.

Qəsəbədaxili yollara asfalt vurulmasını da diqqət saxlamışıq. Ötən 8 ay ərzində bələdiyyə tərəfindən 3330 m2 asfalt örtüyü vurulub. II massiv və III massivdə dağ yamaclarından sel sularının gətirdiyi daş qırıntılarını, eyni zamanda S.Orucov küçəsində torpaq və inşaat materiallarının qalıqları yığılaraq bələdiyyə tərəfindən daşınıb.

Lökbatan bələdiyyəsi tərəfindən S.Orucov küçəsi, III yaşayış massivi, Nizami küçəsi, Musəvi küçəsi, Y.Mirzəyev və V.Əsgərov küçələrində 2553 m2sahəyə asfalt vurulub. Həmin əraidə 1340 m2 sahə isə karbonat işləri həyata keçirilib.

Eyni zamanda Lökbatan bələdiyyəsi qəsəbədə daim sosial məsələləri diqqət mərkəzində saxlanılmsını davam etdirir. Belə ki, neftçi Qurban adına 288 saylı məktəbin ətrafında yaşayan və həmin məktəbdə təhsil alan məktəblilər və müəllimlərin, o cümlədən qəsəbə sakinlərinin rahatlığını təmin etmək məqsədilə məktəbin ətrafında 5 istiqamətdə piyada yolu salınaraq 777 m2 asfalt, 1340 m2lik sahə isə asfalt vurulması üçün hazırlanıb. Bundan əlavə I massivdə 1800 m2, VI massivdə 1200 m2asfaltaltı hazırlıq işləri həyata keçirilib.

Həmçinin Lökbatan bələdiyyəsi tərəfindən qəsəbədə fəaliyyət göstərən 4 saylı usaq bağçasının bir neçə otağı cari təmir edilərək istifadəyə verilib.

Lökbatan bələdiyyəsinin sosial fəaliyyətinin davamı olaraq qeyd etmək istərdik ki, S.Səfərov küçəsi 4 ünvanında məhəllə sakinlərinin məhəllə ağsaqqallarının istirahət etmələrinə və boş vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaq məqsədilə ərazidə istirahət guşəsi - söhbətkeş inşa edib.

Əlavə olaraq qeyd edək ki, Lökbatan bələdiyyəsi tərəfindən 35 m kanalizasiya xətti çəkilib.Lökbatan bələdiyyəsinin fəaliyyət göstərdiyi inzibati binanın dam örtüyü cari təmir edilib. Habelə yanğın təhlükəsizliyinin təmin edilməsi üçün bələdiyyənin fəaliyyət göstərdiyi inzibati binanın elektrik xətləridə dəyişdirilib. Lökbatan bələdiyyəsində qulluqçuların fəaliyyətini yaxşılaşdırılması üçün iş otaqları kompüter, kondisioner, iş masaları və digər texniki avadanlıqlarla təmin edilərək otaqlarda iş şəraiti yaxşılaşdırılıb.

Uğurlarımızdan biri də şəffaflığın təmin edilməsi məqsədiylə bələdiyyə quluqçularnın əmək haqqlarının plastik kartlarla ödənilməsi olub. Həmçinin artıq bələdiyədə vergi ödəyicilərinin uçotunun dəqiqləşdirilməsi üzrə işlərini də başa çatdırıb.

Əldə etdiyimiz uğurlardan biri də vergi yığılmasıyla bağlıdır. Cari ildə ötən illərlə müqayisədə torpaq və əmlak vergilərinin toplanılmasında ciddi irəliləyiş əldə edilib. Torpaq vergisinin toplanması ötən ilin 8 ayı ilə müqayisədə 3.5 dəfə, əmlak vergisi isə 10.8 dəfə çox olub. Buda ötən illə müqayisədə ümumilikdə 7.5 dəfədən çox deməkdir. Torpaq və əmlak vergiləri tədiyyə bildirişi paylanılaraq bank və poçt vasitəsi ilə toplanılmaqdadır. Torpaq və əmlak vergilərinin toplanılması üçün məhəllə komitələri tərəfindən əhali arasında geniş maarifləndirmə işləri aparılır.

Lökbatan qəsəbəsi ərazisində fəaliyyət göstərən orta məktəblərin VIII sinif şaqirdləri arasında inşa yazı müsabiqəsi keçirilərək qaliblər mükafatlandırılıb. Cari ilin 8 ayı ərzində Lökbatan bələdiyyəsinə altmış üç müraciət daxil olub ki, bu müraciətlərin də qırx beşi həll edilib, on ikisi qismən həll edilib.

Lökbatan bələdiyyəsində həmçinin ötən dövrdə idarədaxili nizam-intizam qaydaları gücləndirilərək, texniki təhlükəsizlik qaydalarına əməl edilməsi barədə işçilər təlimatlarla tanış edilib.

Hazırda Lökbatan bələdiyyəsi qəsəbənin I yaşayış massivində küçələrin işıqlandırılması üçün küçə işıqlarını çəkilməsi ilə bağlı hazırlıq işləri həyata keçirilir.

Eyni zamanda Lökbatan bələdiyyəsi qışa hazırlıqla əlaqədar olaraq qəsəbədə yerləşən bir neçə yaşayış binasının giriş hissələrinintəmirini həyatakeçirməyinəzərdə tutur.

Beləliklə, bələdiyyəmiz qəsəbə sakinlərinin bizə göstərdiyi etimadı doğrultmaq niyyətindədir. Bələdiyyə iclaslarının hər birində məhz sakinlər tərəfindən qaldırılan məsələlər müzakirə edilərək onun həlli istiqamətində addımlar atılır və müvafiq orqanlar qarşısında məsələ qaldırılır.

İnanırıq ki, sakinlərimiz tərəfindən qaldırılan məsələlərin həllinə Qaradağ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə az vaxt ərzində nail olacağıq.

**_Namizəd İsmayılov_**
**_Qaradağ rayonu Lökbatan bələdiyyəsinin sədri_**

## ALLAH RƏHMƏT ELƏSİN

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi *Babayevlər ailəsinə*
**Əfsəlağa müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

---

Şirvan bələdiyyəsinin kollektivi *Babayevlər ailəsinə*
**Əfsəlağa müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

---

"Bələdiyyə hayatı" qəzetinin kollektivi *Babayevlər ailəsinə*
**Əfsəlağa müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.


## "Bələdiyyə həyatı" qəzetinə abunə olmağa tələsin

***Qəzetin illik abunə haqqı 67 (altmış yeddi) manatdır.***

**"Bələdiyyə həyatı" qəzeti redaksiyasının abunə rekvizitləri**

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000025944
S.W.I.F.T. BİK ATRAAZ22

**"BƏLƏDİYYƏ HƏYATI" QƏZETİ MMC**
**HESAB N_**
**AZ11ATRA40090048000000000064**
**VÖEN: 1001116461**






Təsisçi: T.Səlimzadə

Redaktor: Vüqar TOFİQLİ

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Bəşir Səfəroğlu küçəsi 141. AZ1009*
Tel: (012) 594-47-35
Mob: (+994 050) 221-28-14

Qəzet Ədliyyə Nazirliyində qeydə alınmışdır. 17.02.2003

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Faktlara görə müəlliflər məsuliyyət daşıyır.

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ0135010000000002594
S.W.I.F.T. BİK ATRAAZ22
"Bələdiyyə həyatı" qəzeti MMC
Hesab N_
AZ11ATRA4009004800000000000644
VÖEN: 1001116461

Dizayner: Zaur ƏLİYEV

"Azərbaycan" nəşriyyatında çap olunub

Sifariş: 2999
Tiraj: 2000